

Hər bir ölkənin, dövlətin bu günü və gələcəyi onun intellektual potensialından asılıdır. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salaraq görürük ki, o ölkələr inkişaf edir ki, orada elmi-texniki tərəqqi sürətlə inkişaf edir, orada təhsilə, elmə, intellektual məhsulların yaradılmasına böyük investisiyalar qoyulur. Azərbaycan bu yolu seçibdir.

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti

## 2011/2012-ci TƏDRİS İLİNDƏ

### AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏKTƏBLƏRİNƏ DAXİL OLMUŞ TƏLƏBƏLƏRƏ

# PREZİDENT TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 3 sentyabr 2001-ci il tarixli 564 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. 2011/2012-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abdulla Hüseyn Müseyib oğlu
Abdullayev Ramazan Şahin oğlu
Abdullayeva Gülnar Oktay qızı
Abuzərli Şəhriyar Namiq oğlu
Axundova Məhsəti Sahib qızı
Alxasova Leyla Vasif qızı
Babaşov Ceyhun Ramiz oğlu
Babazadə İlkin Qorxmaz oğlu
Bayramova Həcər Tahir qızı
Bəhmənzadə Rüstəm Əminağa oğlu
Binyaminov Hikmət Nazim oğlu
Camallı Cahandar İlqar oğlu
Cavadov Qürbət Araz oğlu
Cəbrayılov Ağasəf Elşad oğlu
Cəbrayılov Nurlan Yaşar oğlu
Cəbrayılova Fəridə Rövşən qızı
Cəfərli Tuncay Azad oğlu
Əhmədov Erol Əkbər oğlu
Əhmədov Hüseyn Rövşən oğlu
Ələkbərli Fəridə Əli qızı
Əliyev Əli Rəhbər oğlu
Əlizadə Gövhər Vilayət qızı
Əlizadə Nurlan Azər oğlu
Əsgərli Aygün Əhəd qızı
Əsgərov Surət Əhməd oğlu
Əzizova Sara Məmiş qızı
Feyzullayeva Xavər Canbulat qızı
Fətullayev Orxan Əbülfət oğlu
Hacıbəyli Zeynəb Arzu qızı
Hacıyev Nicat Qədir oğlu
Hacıyev Tofiq Rafiq oğlu
Hacıyeva Gülnar Vaqif qızı
Hacızadə İlahə Qabil qızı
Həsənli Aydın Qalib oğlu
Həsənli Humay Rafael qızı
Həsənli Qüdrət Möhübbət oğlu
Həsənli Orxan Məmmədəli oğlu
Həsənli Ülkər Mübariz qızı
Həsənov Fərid İsmayil oğlu
Həsənova Sara Əslan qızı
Hüseynli Aqil Sami oğlu
Hüseynli Yeganə Fərhad qızı
Hüseynova Məryəm Savalan qızı
Hüseynzadə Ramil Mahmud oğlu
Xəlilli Aytac Nazim qızı
İsayeva Səbinə Zaur qızı
İsmayılov Rüfət Ənvər oğlu
İsmili Rüfət Elman oğlu
Qarayev Osman Əzizağa oğlu
Quliyeva Zərifə Elşad qızı
Qurbanova Ülviyyə Fuad qızı
Mahmudbəyli Çilənay Fikrət qızı
Maqsudova Gülmirə Aydın qızı
Məhərrəmov Müseyib Yaqub oğlu
Məmmədbəyli Cavad Rafik oğlu
Məmmədli Əziz Həbib oğlu
Məmmədli Mətanət Zakir qızı
Məmmədli Nicat Fəxrəddin oğlu
Məmmədli Türkan Elxan qızı
Məmmədov Elnur İlham oğlu
Məmmədov Hüseyn Cəfər oğlu
Məmmədov Xəyal Hikmət oğlu
Məmmədov Zaur Yaşar oğlu
Məmmədova Fəridə Zakir qızı
Məmmədova Ləman Elşən qızı
Məmmədova Nigar Mobil qızı
Məmmədova Şəlalə Vüqar qızı
Məsimli Nurlan Əvvəl oğlu
Mirhəsənov Mirfaiq Mirabutalib oğlu
Movlayeva Fəridə Zakir qızı
Mövsümov Teymur Nazim oğlu
Muradbəyli Elgiz Elmar oğlu
Mursaqulov Ruslan Avtandiloviç
Musalı Samir İsmət oğlu
Musayeva Nərminə Zabit qızı
Nağiyev Şahmar Şahin oğlu
Nəcəfquluzadə İsmayil Famil oğlu
Novruzlu Toğrul Yusif oğlu
Nuriyeva Nərgiz Mətləb qızı
Pənahlı Məmmədtağı Məhəmmədəli oğlu
Rəhimli İbrahim Zülfü oğlu
Rüstəmli Eltac Tofiq oğlu
Rzayev Saleh Valeh oğlu
Rzayeva Sara Əbülfət qızı
Sadıxov Süleyman Sadıx oğlu
Səlimzadə Xəzər Hümbət oğlu
Səlimzadə Natiq Xurşud oğlu
Səmədzadə Sevinc Yaşar qızı
Süleymanlı Tural Təvəkkül oğlu
Şamilov Şamil İlqar oğlu
Şəmilova Pərvin Adil qızı
Şərifov Sarvan Şərif oğlu
Şərifova Könül Nazim qızı
Tağıyeva Şəbnəm Sadıq qızı
Tağızadə Ramin Tofiq oğlu
Talıbova Məryam Eldar qızı
Teymurova Təhminə Bakir qızı
Təbriz Rauf oğlu
Vəliyev Məhəmməd Tağı oğlu
Vəliyeva Çiçək Emil qızı
Vəlizadə Fizuli Azad oğlu
Vəlizadə Hafiz Rəhman oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İLHAM ƏLIYEV,**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 1 sentyabr 2011-ci il

*Fəxr edirəm ki, bizim Azərbaycanın istedadlı övladları var. Fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz.*

**Heydər Əliyev**

# Prezident təqaüdçüləri ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında görüş

Bu il respublikanın ali məktəblərinə keçirilən qəbul imtahanlarında 1476 abituriyent 600-dən yuxarı bal toplamışdır, onlardan 4 nəfəri maksimal nəticə (700 bal) əldə etmişdir. 600-dən çox bal toplayanların 331-i I, 364-ü II, 323-ü III, 458-i isə IV ixtisas qrupunun payına düşür. Ən yüksək nəticə göstərmiş 102 gəncə isə Azərbaycan Respublikası Prezidentinin 01.09.2011-ci il tarixli Sərəncamı ilə Prezident təqaüdü təyin edilmişdir.

Prezident təqaüdçüləri aşağıdakı universitetlərin tələbələridir:

Azərbaycan Dillər Universiteti (1)

Azərbaycan Diplomatik Akademiyası (5)

Azərbaycan Dövlət İqtisad Universiteti (3)

Azərbaycan Dövlət Neft Akademiyası (4)

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (21)

Azərbaycan Tibb Universiteti (26)

Bakı Dövlət Universiteti (12)

Xüsusi təyinatlı təhsil müəssisələri (2)

"Qafqaz" Universiteti (25)

Moskva Dövlət Universitetinin Bakı filialı (1)

Naxçıvan Dövlət Universiteti (2)



***Hər bir Prezident təqaüdçüsü – gələcəyin görkəmli alimi, pedaqoqu və ya dövlət xadimi ola bilər***

"Siz - ən yüksək nəticələr göstərməklə yaxşıların ən yaxşısı olaraq seçilən 102 nəfərsiniz. Sizin hər biriniz gələcəyin görkəmli alimi, pedaqoqu, dövlət xadimi ola bilərsiniz. Siz özünüzü ölkəmizin, xalqımızın qarşısında duran problemlərin həllində iştiraka hazırlamalı, bunun üçün, ilk növbədə, dərin biliklərə yiyələnməli, yaxşı mütəxəssis kimi yetişməlisiniz. Bunu hər bir tələbə etməlidir, lakin sizin ikiqat məsuliyyətiniz vardır. Çünki sizin mövcud uğurlarınız, potensialınız bizə bunu deməyə əsas verir" – Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadə Prezident təqaüdünə layiq görülmüş tələbələrlə görüşü bu sözlərlə açdı.

TQDK sədri tədbirdə iştirak edən tələbələri qazandıqları yüksək nailiyyət münasibəti ilə təbrik edərək bildirdi ki, Azərbaycanda hər il orta hesabla 100 min abituriyent ali məktəblərə daxil olmaq üçün sənəd verir. Onlardan 28-30 min nəfəri ali məktəblərə qəbul olunur. Abituriyentlərin təxminən 1500-ü 600-dən yuxarı nəticə göstərir. Bu isə həmin ilin məzunlarının yalnız 1 faizini təşkil edir: "Bilik yarışı öncülləri ilə görüşlər artıq ənənə halını alıbdır. Hər il olduğu kimi cari ildə də cənab Prezident

İlham Əliyevin 01.09.2011-ci il tarixli Sərəncamı ilə yüksək nəticə göstərən 102 abituriyentə Prezident təqaüdü təyin edilmişdir. Bu, onların əldə etdiyi uğurların ilk bəhrəsidir. Tədbirimizdə iştirak edənlər respublikanın, demək olar, bütün şəhər və rayonlarını, o cümlədən, bəzi kənd məktəblərini təmsil edir. Görüşümüzdə Naxçıvan regional bölməmizlə video bağlantıda 4 nəfər Prezident təqaüdçüsü də iştirak edir. Mən sizin hər birinizi, valideynlərinizi, müəllimlərinizi bu uğur münasibəti ilə təbrik edirəm.

TQDK-nın iş prinsipi elədir ki, biz nə imtahana hazırlıq mərhələsində, nə də imtahan dövründə sizi görmürük. Yalnız ərizələrinizlə işləyir, kodlarınız və imtahan nəticələrinizlə maraqlanırıq. Daha sonra biz nəticələriniz əsasında müsabiqə keçirir, ali məktəblərin müxtəlif ixtisaslarına yerləşdirmə aparırıq. Artıq imtahan prosesi arxada qalıb. İndi biz sizinlə üz-üzə görüşürük.

Zalda TQDK-nın test sistemini quran əməkdaşları da əyləşiblər. Amma bu sistemin bilavasitə istifadəçiləri sizsiniz. Ən yüksək intellektual potensialı olan və bunu imtahan nəticələri ilə təsdiq edən şəxslər kimi sizin fikirləriniz bizi çox maraqlandırır. Hesab edirəm ki, sizin rəy və təkliflərinizi öz dilinizdən eşitmək bizim fəaliyyətimiz üçün də əhəmiyyətli ola bilər".

**Siz bilik iqtisadiyyatı üçün hazırlanan gənc nəslin lokomotivinə çevrilməlisiniz**

TQDK sədrinin müavini Namiq Babayev də gəncləri təbrik etdi. O, tələbələri əldə etdikləri yüksək nailiyyət münasibəti ilə təbrik etdi və öz tövsiyələrini verdi: "Əziz gənclər, siz tələbə adı qazanmaqla yanaşı, dövlətimiz tərəfindən çox yüksək bir mükafata–Prezident təqaüdünə layiq görülmüsünüz. Bu uğur sizi sevindirməklə bərabər, həm də daha böyük məqsədlərə çatmanıza təkan olmalıdır. Siz artıq müxtəlif ali məktəblərdə təhsilinizi davam etdirirsiniz. Unutmayın ki, sizin atacağınız hər bir addım bu təhsil ocaqlarında oxuyan tələbələr, eləcə də sizdən sonra gələn gənclər – gələcək abituriyentlər üçün örnək olmalıdır. Siz öz istedadınız, bilik, bacarıq və vərdişlərinizlə bilik iqtisadiyyatı üçün hazırlanan gənc nəslin lokomotivinə çevrilməlisiniz!"

**Abituriyent uğurunun açarı: iradə, zəhmət, inamdır**



Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasının tələbəsi **Humay Həsənli** tələbə adı qazanmağın əsas amilləri barədə danışdı:

– Bütün tələbə adı qazananları təbrik edirəm. Belə bir uğuru qazanmaq, xüsusilə Prezident təqaüdünə layiq görülmək çox böyük bir şərəfdir. Bu müvəffəqiyyəti əldə etməkdə bizə yardımçı olan hər kəsə, başda valideynlərimiz və müəllimlərimiz olmaqla əməyi keçən hər bir şəxsə təşəkkürlərimi bildirirəm. Hesab edirəm ki, tələbə adı qazanmaq üçün 3 amil əsasdır: birincisi iradə, ikincisi davamlı çalışmaq, zəhmətkeşlik, üçüncüsü isə uğur qazanacağına inamlı olmaq lazımdır. Bu amillər vəhdətdə olanda istədiyinə çatmaq mümkündür. Bizdən sonrakı abituriyentlərə də belə keyfiyyətlər və qələbə sevinci arzulayıram!"

**Daha sonra Prezident təqaüdçülərinin səsləndirdiyi rəy və təkliflər dinlənildi, onlara münasibət bildirildi, izahatlar verildi:**



**Süleyman Sadıxov** (I qrup, 685 bal, Azərbaycan Dövlət Neft Akademiyasının "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" ixtisasının tələbəsi)

– Tələbə adını qazanmış hər bir abituriyenti təbrik edirəm. Hesab edirəm ki, uğurumuzun səbəbkarı yalnız biz özümüz deyilik. Tələbə adını qazanmaqda üzərimizdə birbaşa zəhməti olan müəllimlərimizə, valideynlərimizə dərin təşəkkürlərimi çatdırıram. Azərbaycan gəncliyinə, biz tələbələrə göstərdiyi qayğıya görə möhtərəm Prezidentimiz İlham Əliyev cənablarına öz minnətdarlığımı bildirirəm. Bizdən sonrakı məzunlara daha əzmkarlıqla çalışmağı tövsiyə edir və bizdən daha üstün nəticə göstərmələrini arzulayıram! Bu bir faktdır ki, bu gün zəhmət çəkib qəbul imtahanına ciddi hazırlaşan heç bir şagirdin əməyi yerdə qalmır. Biz əldə etdiyimiz nəticə ilə bunun şahidi olduq. Hazırda dövlətimizin bizlərə göstərdiyi qayğı, müxtəlif təqaüdlərin ayrılması və mənim də qoşulmaq fikrində olduğum "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə dövlət proqramı"nın təşkili bizim hər birimizi daha inamla, həvəslə çalışmağa və ölkəmizə lazımlı, savadlı bir kadr kimi yetişməyə ruhlandırır.

**TQDK sədri M.Abbaszadə:** "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə dövlət proqramı" üzrə xaricdə təhsil almağa gedən gənclər arasında da qəbulda yüksək nəticələr əldə edənlər az deyildir. Təbii ki, bu proqram çox gözəl bir proqramdır. Gənclərimiz bu proqram vasitəsi ilə dünyanın nüfuzlu universitetlərində təhsil alır və fundamental elmlərlə yanaşı, son dünya təcrübəsini də mənimsəyirlər. Belə gənclərdən bəziləri bizə yazır ki, çox yüksək balla ali məktəbə qəbul olsam da, Prezident təqaüdçüləri sırasında yoxam, nə üçün? Mən fürsətdən istifadə edib belə gənclərə və gələcək abituriyentlərə bildirirəm ki, Prezident təqaüdü qəbul imtahanlarında ən yüksək bal toplayıb və Azərbaycan ali təhsil müəssisələrinə qəbul olan tələbələrə verilir. Xaricdə təhsil alan gənclərimiz isə başqa proqramlar üzrə təqaüdlərdə iştirak edə bilərlər.



**Rüstəm Bəhmənzadə** (II qrup, 685 bal, Azərbaycan Dövlət İqtisad Universitetinin "Dünya iqtisadiyyatı" ixtisasının tələbəsi)

– TQDK-nın obyektivliyi və imtahanlarda yaratdığı şərait imkan verdi ki, biz öz biliklərimizi dolğun şəkildə nümayiş etdirə bilək. İmtahanın gedişindən çox razı qaldım. Xüsusən də imtahanda açıq test tapşırıqlarının tətbiqini alqışlayıram. Ancaq mənim fikrimcə, açıq test tapşırıqlarının hələlik yalnız riyaziyyat fənində tətbiqi kifayət edər. Çünki riyaziyyat dəqiq elmdir və açıq test suallarına bu fənn üzrə cavab tapmaq digər fənlərlə müqayisədə daha asandır. Başqa fənlərə də bu tipli test suallar salınarsa, fikrimcə, o zaman imtahan vaxtı probleminə də toxunmaq lazım olacaq. Çünki abituriyentlərin bilik səviyyəsi yaxşı olsa belə, onlar vaxt azlığından bu tipli tapşırıqları həll etməyi çatdıra bilməyəcəklər.



**TQDK sədri M.Abbaszadə:** Azərbaycanda qəbul imtahanlarının yeni model əsasında keçirilməsi "Təhsil haqqında" qanunda da əksini tapıb. Bu il qəbulda yalnız riyaziyyat fəndindən açıq tipli testlər tətbiq olundu. Gələcəkdə digər fənlər üzrə də bu tipli testlər tətbiq olunacaq. Təbii ki, açıq tipli testlər tətbiq olunacaqsa, onların yoxlanılma və qiymətləndirmə üsulları da fərqli olacaq. Qəbul prosesinə tədricən hər il müəyyən bir element daxil ediləcək. Təbii ki, biz açıq tipli testləri imtahana daxil edəndə vaxt faktorunu da nəzərə alırıq. Gələcəkdə, ola bilsin ki, belə məsələlər, o cümlədən imtahan suallarının sayı ilə də əlaqədar hansısa dəyişikliklər edilsin. Hələ ki, 2012-ci il üçün elə də çox dəyişiklik nəzərdə tutulmur. Nəzərdə tutulan dəyişikliklərlə bağlı biz yaxın vaxtlarda ictimaiyyətə geniş məlumat verəcəyik.



**Təbriz Raufoğlu** (III qrup, 666 bal, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquqşünaslıq" ixtisasının tələbəsi)

– Hamınızı salamlayıram və bizimlə belə bir görüşü təşkil etdiyinə görə TQDK rəhbərliyinə təşəkkür edirəm. Açıq sualların bütün fənlər üzrə salınmasının tərəfdarıyam. Çünki belə suallar abituriyentin intellektual səviyyəsini daha qabarıq şəkildə ortaya qoyur. Ən azı hər fəndən 5 sualın açıq tipli olması məqsədəuyğun olardı.



**Natiq Səlimzadə** (I qrup, 695 bal, "Qafqaz" Universitetinin "Kompyuter mühəndisliyi" ixtisasının tələbəsi)

– TQDK-nın nəşr etdiyi dərs vəsaitləri, test topluları hazırlıq mərhələsində abituriyentlərə çox köməklik edir. Amma bəzən biz orta məktəbdə istifadə etdiyimiz dərsliklərlə bu vəsaitlər arasında müəyyən uyğunsuzluqlar görürük. Yaxşı ki, biz "Abituriyent" jurnalından mütəmadi olaraq məktəb dərsliklərindəki



səhvlərin düzəlişi haqda məlumatlar alırdıq. Təklif edərdim ki, bu tipli maarifləndirici materialların sayı artırılsın, gələcək nəşrlərdə bu məsələlərə daha çox diqqət yetirilsin.

**TQDK sədri M.Abbaszadə:** Biz hər il qəbul proqramlarını tərtib edərkən həmin il məktəbi bitirən abituriyentlərin, məsələn, VIII sinifdə o dərsləri, mövzuları hansı şəkildə keçdiklərini mütləq nəzərə alırıq. Çünki elm inkişaf edir. Yeni-yeni kəşflər olunur və bu, qəbul zamanı test suallarında da öz əksini tapmalıdır. Tövsiyəm odur ki, abituriyentlər bizim buraxdığımız vəsaitləri, "Abituriyent" jurnalında nəşr olunan materialları çox diqqətlə oxusunlar. Çünki biz dərsliklərdə üzə çıxan elmi, metodiki səhvlər, onların izahı ilə bağlı xüsusi yazılar dərc edir və abituriyentləri qəbuldan çox-çox öncə məlumatlandırırıq ki, onlar imtahanda sualları cavablandırarkən daha doğru seçim edə bilsinlər. Ümidvaram ki, təcrübəli müəllimlər, metodistlər tərəfindən çapa hazırlanan yeni vəsaitlər və test kitabları və ya əvvəlki nəşrlərin təkmilləşdirilmiş variantları bundan sonra da qəbul imtahanlarına hazırlaşanlara əhəmiyyətli dərəcədə köməklik edəcək. Bu vəsaitlərdən V sinfidən başlayaraq istifadə etmək olar. Təkcə müəllimlər deyil, hətta valideynlər də bu test kitabları ilə uşaqlarının bilik səviyyəsini yoxlaya bilərlər. Bu, həm də valideynlərə öz uşaqlarının təhsilinə bilavasitə nəzarət etməyə şərait yaradır.



**Qüdrət Həsənli** (I qrup, 675 bal, "Qafqaz" Universitetinin "Kompyuter mühəndisliyi" ixtisasının tələbəsi)

– Bu il ilk dəfə tətbiq edilən açıq tipli test tapşırıqlarının verilməsini alqışlayıram və düşünürəm ki, belə testlər, əsasən, dəqiq fənlərdə salınarsa, daha yaxşı olar. Ümumiyyətlə, bu tip testlər abituriyentləri daha məntiqli düşünməyə sövq edir və nəticədə onların biliklərini daha dəqiq qiymətləndirməyə köməklik göstərir.



**Gülnar Abdullayeva** (II qrup, 672 bal, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Menecment" ixtisasının tələbəsi)

– Test blokları tərtib edilərkən sualların çətinlik dərəcəsi orta götürülsə, daha yaxşı olar. Məsələn, bəzi qruplarda riyaziyyatdan suallar asan olsa da, bəzilərində çətin idi. Bu isə uşaqların öz biliklərini nümayiş etdirməsinə birbaşa təsir edən amildir.



**TQDK sərdi M.Abbaszadə:** Sualların çətin, yaxud asan olması imtahan verənlərin fikrinə görə müəyyən olunmur. Bunun bütün dünyada qəbul olunmuş meyarları mövcuddur. Obyektiv amillər var. Birincisi, sualların çətinlik dərəcəsini ekspertlər qiymətləndirir. İmtahandan sonra da suallara verilən cavabların statistikası araşdırılır və onların çətinlik dərəcəsi yenidən ölçülür. Ekspertlərin və imtahanın statistik göstəriciləri üst-üstə düşürsə, deməli, suallar müvafiq olaraq sadə, orta, yaxud çətindir. Amma istənilən halda test blokunda hər 3 növ sual olmalıdır. Asan, orta və çətin suallar olub, bundan sonra da olacaqdır. Çünki çətin suallar olmasa, biz aşağı, orta, yüksək nəticə göstərən abituriyentləri fərqləndirə bilmərik. Çox yüksək müsabiqə vəziyyətində yalnız çətin suallar vasitəsi ilə yaxşıların ən yaxşılarını seçmək mümkün olur. O fikir doğrudur ki, müxtəlif qruplarda eyni bir fənnin çətinlik dərəcəsində fərqlilik olur. Məsələn, ana dili üzrə suallar I qrupla müqayisədə III qrupda daha çətin olur. Çünki həmin fənn üzrə nəticələr III qrupda gələcək mütəxəssislərin seçimi zamanı nəzərə alınan əsas göstəricilərdəndir. Ona görə də digər qruplara nisbətən III qrupda ana dili fənninin çəki əmsalı yüksəkdir.



**Zeynəb Hacıbəyli** ( IV qrup, 682 bal, Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasının tələbəsi)

– Sınaq imtahanlarının bizim qəbul imtahanlarına hazırlığımızda, xüsusən də psixoloji gərginliyin aradan götürülməsində çox böyük rolu olur. Ona görə də gələcəkdə sınaq imtahanlarının sayca artırılmasını, təkrar sınaqların isə mümkünsə keçirilməməsini təklif edərdim. Çünki təkrar sınaqlara gedən bəzi abituriyentlər aldatmaya yol verir, cavabları əvvəlcədən bildiklərindən onların topladıqları balları real olmur.

**TQDK sərdi M.Abbaszadə:** Sınaq imtahanları ona görə keçirilir ki, abituriyentlər burada biliklərini yoxlasınlar. Həm də imtahana psixoloji cəhətdən hazırlaşsınlar. Digər tərəfdən unudulmamalıdır ki, sınaq imtahanlarının nəticələri qəbul imtahanlarının nəticələrinə təsir etmir, yəni sınaq imtahanlarının hüquqi əsası olmur. Bu imtahanlara gələn abituriyentlər öz imkanlarını real qiymətləndirməli və valideynlərini, müəllimlərini heç bir halda aldatmağa çalışmamalıdırlar. Bakıda bizə eyni bir gündə 20 min nəfər abituriyentin iştirakı ilə sınaq imtahanı keçirmək imkanı verilir. Təkrar imtahanları paytaxtda və bölgələrdə ona görə keçiririk ki, müəyyən səbəblərdən əvvəlki imtahana gələ bilməyən abituriyentlər heç olmasa ikinci şansda özlərini yoxlaya bilsinlər. Biz istəməzdik ki, sınaqlarda özünüaldatma halları olsun. Ancaq kimsə kimi isə aldatmaq istəyirsə, bu artıq bizim problemimiz deyildir.



**Nurlan Cəbrayılov** (II qrup, 680 bal, "Qafqaz" Universitetinin "Dünya iqtisadiyyatı" ixtisasının tələbəsi)

– İmtahanlardan sonra televiziyada bəzi test tapşırıqlarının ekspertlər tərəfindən izahı verilir. Təklif edərdim ki, imtahana düşən bütün sualların belə izahlı təhlili aparılsın. Bundan başqa, açıq tipli tapşırıqlarla bağlı bildirmək istərdim ki, belə tipli tapşırıqlar ya test blokundan çıxarılsın, ya da tətbiq edilirsə, bu halda TQDK ictimaiyyəti maarifləndirən vəsaitlər çap etsin. Çünki biz müəyyən çətinliklərlə qarşılaşdıq. Odur ki, bizdən sonrakı abituriyentlərin açıq tipli test nümunələri ilə daha çox işləməsinə ehtiyac var.

**TQDK sərdi M.Abbaszadə:** Əvvəla, dəqiqlik üçün məlumat verim ki, açıq tipli testlər bu il qəbul imtahanlarında yalnız riyaziyyat fənnində tətbiq olunsa da, digər fənlər üzrə də bu tipli test nümunələri hələ carı ilin əvvəlində "Abituriyent" jurnalında dərc edilmiş, həmçinin sınaq imtahanlarında yoxlamadan keçirilmişdir. Bütün fənlər üzrə açıq tipli testlər bu ildən siniflər üçün test kitablarına da daxil edilmişdir ki, şagird və abituriyentlərdə onlarla işləmək vərdişləri yaransın. Hesab edirik ki, V, VI, VII siniflərdən başlayaraq açıq test nümunələri ilə işləyən şagirdlər gələcəkdə

bu tip tapşırıqları daha yaxşı və asan qavrayıb həll edə biləcəklər. Mən sizin narahatçılığınızı başa düşürəm. Neçə illərdir ki, siz imtahanlara qapalı test tapşırığı formalarından istifadə edərək hazırlaşmısınız. Məlumdur ki, bu forma üzrə bir suala 5 cavab variantı verilir və onlardan yalnız biri düz cavab olur. Bəzən abituriyentlər təsadüfi seçim edir, bilmədikləri sualın cavabını kor-koranə qaralayırlar. Bu təsadüflərin qarşısını almaq üçün belə bir prinsip müəyyən edilib ki, 4 səhv cavab 1 düz cavabı silir. Amma açıq tipli tapşırıqlarda abituriyent cavabları fikirləşməlidir. Ona heç bir yardım yoxdur və yalnız biliyi köməyinə gələ bilər. Bu isə abituriyentdə təfəkkürün fəallaşmasını, onun daha dərindən düşünməsini, cavabı əsaslandırmasını tələb edir. Biz də onu istəyirik ki, şagirdlərdə məntiqi təfəkkür daha yüksək dərəcədə inkişaf etsin. Ona görə də açıq tipli testlər digər fənlərdə də tətbiq ediləcək. Təbii ki, addımlar yavaş-yavaş atılacaq. Bu il keçirilən imtahanlarda açıq tipli suallara cavab verən abituriyentlər heç nə itirmədilər, əksinə, qazandılar. Çünki onların yazdıqları cavablar səhv olduğu halda belə, düz cavablara təsir etmədi. Biz imkan verdik ki, abituriyentlər öz məntiqi düşüncələrinə necə güvəndiklərini göstərə bilsinlər.



**Türkan Məmmədli** (IV qrup, 682 bal, Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasının tələbəsi)

– TQDK-nın təklif etdiyi internet xidmətləri barədə rəy bildirmək istəyirəm. Bu xidmətlər bizim işlərimizi çox asanlaşdırdı. Vaxt itkisinin qarşısını aldı, daha operativ, rahat şəkildə ərizələrimizi təqdim edə bildik. Nəticələrimizi də internet vasitəsi ilə öyrənə bildik. Bütün bunlara görə TQDK-ya minnətdarlığımızı bildiririk. Amma sınaq imtahanlarına internetlə qeydiyyat zamanı biz müəyyən problemlərlə qarşılaşırdıq. TQDK-nın saytında həddən artıq yüklənmələr olurdu. Saatlarla qeydiyyatdan keçmək mümkün olmurdu. Xahiş edərdik ki, növbəti illərdə bu məqam nəzərə alınsın.

**TQDK sədri M.Abbaszadə:** Siz bu il keçirilən sınaq və qəbul imtahanlarında bizimlə ünsiyyətinizi internet vasitəsi ilə qurdunuz. Təbii ki 5-6 il öncə belə deyildi. Sınaq imtahanlarına internet vasitəsi ilə yazılış üzrə göstəricilər ilk illər çox aşağı səviyyədə idi: təxminən 10 faiz. Artıq son illər biz sınaq imtahanlarına yazılışı yalnız internet vasitəsi ilə keçiririk. Düşünürük ki, bu, abituriyentlər üçün rahat bir üsuldur. Sınaq imtahanları zamanı saytların yüklənməsi faktından xəbərdarıq. Lakin bu, tək bizlik deyil. Ölkədə müxtəlif internet provayderləri var. Hazırda biz onlardan ikisi ilə işləyirik. Amma bizim istifadəçilərimiz müxtəlif provayderlər vasitəsi ilə bizə qoşulurlar. Bu zaman provayderlər arasında informasiya mübadiləsi sürəti müxtəlif olur. Ona görə də provayder sürətlərinin müxtəlif olması üzündən, yəni bizdən asılı olmadan yüklənmələr yaranır. Amma biz artıq bu problemin həlli üzərində düşünmüşük. Biz sınaq imtahanlarının saytını ayrı bir portalda və ayrı bir serverdə yerləşdirəcəyik. Qarşıdakı il ərzində bu məsələni həll edəcəyik ki, növbəti sınaqlarda yüklənmə problemi yaşanmasın.

Tədbirin sonunda Prezident təqaüdünə layiq görülmüş gənclərə TQDK-nın xatirə hədiyyəsi kimi Azərbaycan Mili Ensiklopediyasının xüsusi cildi təqdim edildi. TQDK sədri bu kitabın hər bir azərbaycanlının evində ən dəyərli bir sərvətə çevrilməli olduğunu vurğulayaraq gəncləri bir daha təbrik etdi və onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı.

*Hazırladılar: "Abituriyent"in*
*analitik-informasiya qrupunun üzvləri*
*Tünzalə Cəfərova*
*Leyli Ağayeva*
*Rabil Novruzov*

*Bu gün Azərbaycan gəncləri biliklərə çox meyillidirlər.*
*Gənclərimiz istəyirlər ki, yaxşı mütəxəssis, yaxşı peşəkar olsunlar…*
*Gələcəkdə ölkəmizi gənclərimiz idarə edəcəklər.*
*Ölkəmizin necə inkişaf edəcəyi onlardan asılı olacaqdır.*

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

# ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ GƏNCLƏRLƏ MÜSAHİBƏLƏR

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası əvvəlki illərdə olduğu kimi, bu il də ali məktəblərə yüksək balla qəbul olan gənclərin ictimaiyyətə tanıdılması, təcrübələrinin öyrənilməsi və yayılması məqsədilə bir sıra tədbirlər həyata keçirib. "Abituriyent" jurnalının bu sayı bütünlüklə onlara həsr edilib. Aşağıda TQDK-nın anket-sorğusunda iştirak edən, özü haqqında informasiya və foto şəklini təqdim edən hər bir gəncin topladığı bal, qəbul olduğu ixtisas, bitirdiyi orta məktəb haqqında məlumatlar dərc olunur. Ancaq əvvəlcə hər ixtisas qrupunda rekord nəticə – ən yüksək bal toplayan gənclərlə aparılmış müsahibələri təqdim edirik.**

## Ləman Məmmədova: *"TQDK-nın vəsaitlərində məlumatların sistemliliyi, lakonikliyi, dolğunluğu qəbula hazırlaşanlar üçün əvəzedilməz mənbədir"*



*Qəbul imtahanlarının rekordçularından biri də bütün suallara düzgün cavab verərək 700 bal toplayan Ləman Məmmədovadır. O, "Qafqaz" Universitetinin "İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi" ixtisasına qəbul olub. Ləman Bakının Bakıxanov qəsəbəsində yerləşən 169 saylı orta məktəbin məzunudur. Birinci sinifdən on birinci sinfə kimi əla qiymətlərlə oxuyub. Buraxılış imtahanlarını da yüksək qiymətlərlə verib. Respublika üzrə keçirilən müxtəlif olimpiada və müsabiqələrdə iştirak edərək ilk yerləri qazanıb. XI sinifdə oxuyarkən məktəblilər arasında riyaziyyat fənni üzrə keçirilən olimpiadada Bakı şəhəri üzrə I yeri tutub. Bundan əlavə Ləman inşa müsabiqələrində də iştirak edərək yüksək uğur qazanıb. Kitab oxumağı çox sevir. Boş vaxtlarında üzgüçülüklə məşğul olur, fortepiano çalır, rəsm çəkir. Atası mühəndis, anası isə riyaziyyat müəllimidir.*

L.Məmmədova deyir ki, özünə və bilik səviyyəsinə güvəndiyi üçün 700 bal toplayacağına əmin olub: "Qarşıma yüksək bal toplamağı məqsəd qoyub qəbul imtahanına yüksək səviyyədə hazırlaşmışdım. Valideynlərim, müəllimlərim, yoldaşlarım mənim yüksək uğur qazanacağıma inanırdılar. İmtahan öncəsi bir az həyəcanlı idim, çünki imtahan idi, hər şey ola bilərdi. Sualları bir saata cavablandırdım. Yazdıqlarımı ikinci dəfə yoxladım ki, nəticəm yüksək olsun. İmtahan bitməmişdən əvvəl çıxmaq xoşuma gəlmir deyə, onun qurtarmasını gözlədim. İmtahandan çıxandan sonra müəllimlərim suallara cavablarımı yoxladılar. Məlum oldu ki, bütün suallara düzgün cavab yazmışam. Anam deyir ki, imtahandan çıxanda üzündəki ifadədən bildim ki, hər şey yaxşıdır. Ona ilk sözüm isə "imtahan sınaqdan da asan idi," – oldu. İki gündən sonra nəticələr çıxdı, məlumat gözlədiyimiz kimi oldu, çox sevindik. Ali məktəblərə hazırlaşan hər bir şagirdin bir məqsədi olur: uğur əldə etmək. Ancaq imtahanda uğur qazanmağın ciddi hazırlıqdan asılı olduğunu bildikləri halda belə heç də şagirdlərin hamısı ona yetərincə hazırlaşmır. Çünki hazırlığa, öyrənməyə onlar əzab-əziyyətli, məcburi bir iş kimi yanaşırlar. Halbuki öyrənmək, bilik əldə etmək şagird üçün bir vərdişə, tələbata çevrilməlidir. Ali məktəblərə qəbul imtahanları bizlər üçün gələcəyə açılan bir qapıdırsa, o qapıya gedən yol imtahana ciddi hazırlıqdan keçir".

***"Uğur əldə etmək üçün aşağı siniflərdən yaxşı çalışmaq lazımdır"***

L.Məmmədova qəbul imtahanında yüksək bal toplamaq üçün aşağı siniflərdən yaxşı çalışmaq

lazım olduğunu söyləyir: "Mən bütün fənləri yüksək səviyyədə oxumuşam. Onlarda ayrı-seçkiliyə yol verməmişəm, hamısına eyni dərəcədə diqqət yetirmişəm, Aşağı siniflərdən 11-ci sinfə qədər bu qayda üzrə çalışmışam, buna görə də istəyimə nail olmuşam".

*"Məncə, repetitorsuz ali məktəbə daxil olmaq olar"*

Ləman deyir ki, qəbul imtahanına hazırlaşan zaman 10 ay repetitor xidmətindən istifadə etmişəm: "Məncə, repetitorsuz ali məktəbə daxil olmaq olar, amma 700 bal toplamaq çətindir. Əlbəttə, qəbul imtahanına hazırlaşan hər bir abituriyentin müəllim məsləhətinə ehtiyacı yaranır. Hətta məktəbdə dərslər yüksək səviyyədə keçilsə belə, buna ehtiyac olur. Bununla belə, heç bir məsləhət, izah, tövsiyə şagird çalışmasını əvəz edə bilməz. Şəxsən mənim müəllimlərim çox güclü olub. Amma son sinifdə hiss etdim ki, repetitor-müəllim məsləhətinə, istiqamətinə ehtiyac var".

*"Əyləncələrə çox vaxt sərf edən abituriyenlər imtahanda aşağı nəticələr göstərirlər"*

L.Məmmədovanın fikrincə, imtahana hazırlaşan hər bir abituriyent bütün diqqətini hazırlığa yönəltməlidir: "Hazırda kompyuter və digər texnologiyalar yüksək inkişaf etdiyi üçün bir çox uşaqların başı onlara qarışır, çox vaxt internetdə olurlar və dərslər arxa plana keçir. Bu səbəbdən az oxuyurlar. Mənim yoldaşlarımdan da başı telefona, kompyuterə qarışanlar olub. Onlar boş vaxtlarını cürbəcür əyləncələrə, internet oyunlarına sərf edirdilər. Nəticədə qəbul imtahanında az bal topladılar. Mən imtahana hazırlaşanda yorulduğumu hiss edən zaman kitablardan uzaqlaşıb dincəlirdim. Əlbəttə, heç bir abituriyent imtahana hazırlıq zamanı özünü əyləncədən tamamilə məhrum etməməli, müvəffəqiyyətli çalışmalar həftəsindən sonra özünü bir istirahət və əyləncə günü ilə mükafatlandırmalıdır. Əks halda, onda həddindən artıq yorğunluq əmələ gələ bilər, bu da imtahana hazırlıqla bağlı bütün səyləri heçə endirər".

*"TQDK-nın qəbul imtahanlarına hazırlaşmaq üçün nəşr etdiyi vəsaitlərin mənə çox faydası olub"*

L.Məmmədova qeyd edir ki, qəbul imtahanına hazırlaşan zaman dərsliklərlə yanaşı, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının nəşr etdiyi vəsaitlərdən də geniş istifadə edib: "Bu vəsaitlər mənim dərsliklərdən öyrəndiyim biliklərin sistemə salınmasına kömək edib. Mən 11-ci sinifdən başlayaraq TQDK-nın nəşr etdiyi bütün vəsaitləri oxuyur, "Abituriyent" jurnalının bütün saylarını izləyirdim. Jurnalda qəbulla bağlı qaydalarla yanaşı, abituriyentlər üçün vacib olan digər məlumatlarla da tanış olurdum. Vəsaitlərdə məlumatların sistemliliyi, lakonikliyi, eyni zamanda dolğunluğu qəbul imtahanına hazırlaşanlar üçün əvəzedilməz mənbələrdir. Son illər TQDK İKT-nin imkanlarından istifadə edərək abituriyentlərin qəbul imtahanlarına hazırlaşmasına metodiki kömək məqsədilə ayrı-ayrı fənlər üzrə təcrübəli ekspertlərin internet vasitəsilə video-məsləhətlərini nümayiş etdirir. Bundan başqa "Video-mühazirələr" silsiləsindən bütün fənlər üzrə qəbul imtahanı proqramlarının mövzularını əhatə edən mühazirələr təqdim edir. Mən bu mühazirələrlə də tanış olub faydalanmışam".

*"Qəbul imtahanlarına hazırlıq dövründə hamının, xüsusilə valideynlərin abituriyentə dəstəyi olmalıdır"*

Qəbul imtahanına hazırlaşan zaman valideynləri Ləmana böyük dəstək olub: "Valideynlərim heç vaxt məni sıxmayıblar. Əksinə, bəzən mənə deyirdilər ki, az oxuyum, özümü çox yormayım. Mən isə həmişə onlara deyirdim ki, siz məndən daha çox oxumağı tələb edin. Valideynlərim heç vaxt məni dərs üstündə danlamayıblar. Bəzi yoldaşlarımdan eşidirdim ki, evdə onları sıxışdırır, danlayır və ya təzyiq göstərirlər, amma mənim valideynlərim mənimlə yüksək nəzakətlə davranırdılar. Əslində uşağın özündən də çox şey asılıdır. Mən elə çalışırdım, danlağa, qınağa əl yeri qalmırdı. Valideynlərimin mənə ixtisas seçimində də köməyi olub. Əslində mən həm tarixçi, həm iqtisadçı, həm riyaziyyatçı və həm də digər ixtisaslara meyilli idim. Amma valideynlərim məni istiqamətləndirdilər. Onlar hiss etdilər ki, mən məhz I qrupda yüksək nəticəyə nail ola bilərəm.

Fikrimcə, qəbul imtahanlarına hazırlaşan dövrdə abituriyentə valideynlər tərəfindən hərtərəfli kömək olunmalıdır. Nəzərə alınmalıdır ki, qəbula hazırlaşan uşaqların psixoloji durumu elə vəziyyətdə olur ki, bu zaman onların köməyə, dəstəyə ehtiyac olur".

***"İxtisasım üzrə mükəmməl təhsil almağı qarşıma məqsəd qoymuşam"***

Gələcək planlarından danışarkən Ləman vurğulayır ki, imkan olarsa, təhsilini xaricdəki nüfuzlu ali təhsil müəssisələrinin birində davam etdirmək istərdi: "Əlbəttə, mən çalışacağam ki, qəbul olduğum fakültədə yaxşı oxuyum, əlaçı olum. İxtisasım üzrə mükəmməl təhsil almağı qarşıma məqsəd qoymuşam. Xaricdə təhsil almalı olsam da, Azərbaycana qayıdıb burda işləyəcəyəm, Vətənim üçün çalışacağam".

## Xavər Feyzullayeva: *"Düzgün vaxt bölgüsü, məsuliyyət, möhkəm iradə, ciddi hazırlıq uğura təminat verir"*



*Xavər Feyzullayeva builki qəbul imtahanlarında rekord nəticə - 700 bal toplayan abituriyentlərdən biridir. Bakı şəhərində anadan olub. Atası Biləcəri Lokomotiv Deposunda maşinist vəzifəsində çalışır, anası isə evdar qadındır.*

*299 saylı orta məktəbin məzunu olan Xavər "Qafqaz" Universitetinin "Kimya mühəndisliyi" ixtisasına daxil olub. Məktəbi yüksək qiymətlərlə bitirən X.Feyzullayeva elm və təhsilə hələ uşaq yaşlarından böyük maraq göstərib. Bilik və intellektual səviyyəsinə görə məktəbdə fərqlənən şagirdlərdən olub. Xavərin ən böyük arzusu daxil olduğu "Qafqaz" Universitetini bitirdikdən sonra biliyini xarici ölkə universitetlərinin birində daha da artırmaq, layiqli mütəxəssis kimi yetişərək, vətənə, xalqa xidmət etməkdir.*

***"Qəbul imtahanına hazırlaşan abituriyent vaxt bölgüsünü düzgün aparmalıdır"***

X. Feyzullayeva qeyd edir ki, düzgün vaxt bölgüsü, məsuliyyət, möhkəm iradə, ciddi hazırlıq uğura təminat verir. Sadalananlara əməl edən hər bir abituriyent qəbul imtahanında yüksək nəticə göstərə və hətta 700 bal da toplaya bilər: "Qəbul imtahanına hazırlaşan abituriyent birinci növbədə vaxt bölgüsünü düzgün aparmalıdır. Məhz vaxtı düzgün böldüyüm üçün hər bir fənn üzrə imtahana səmərəli, sistemli hazırlaşmağa, öyrəndiklərimi təkrar etməyə yetərincə vaxtım olurdu. Mən imtahana hazırlığa hər zaman çox ciddi və böyük məsuliyyətlə yanaşırdım. Bəzən elə olurdu ki, yorulur, bu gün oxuyub bitirməli olduğum materialı çatdıra bilmirdim. Ancaq ertəsi gün ilk olaraq yarımçıq qalan materialı oxuyub başa çatdırır, sonra digər materiallara keçirdim. Üstəlik də, bu günün işini sabaha saxladığıma görə özümü qınayırdım. İki il bütün diqqətimi hazırlıq prosesinə yönəltdim. Gecə-gündüz çalışdım, nəticədə çəkdiyim zəhmət bəhrəsini verdi".

***"Yüksək bal toplamaq üçün müstəqil çalışmaqla bərabər, hazırlıq kursuna getmək və ya repetitor xidmətindən istifadə etmək lazımdır"***

X. Feyzullayeva deyir ki, o, qəbul imtahanlarına hazırlıq kursu çərçivəsində hazırlaşıb: "Fikrimcə, repetitor xidmətindən istifadə etmədən və ya hazırlıq kursuna getmədən yüksək nəticə əldə etmək bir qədər çətindir. Mən iki il hazırlıq kursuna getmişəm. Onu da deyim ki, kursa getməzdən əvvəl sınaq imtahanlarında aşağı bal toplayırdım. Amma kurs xətti ilə hazırlaşandan sonra sınaqlarda daha yüksək nəticə göstərməyə başladım. Hazırlıq kursunda dərslər sistemli şəkildə keçirilir, test tapşırıqlarının həllinə daha çox üstünlük verilirdi. Öncə hər həftə, imtahana yaxın aylarda isə, demək olar ki, hər gün sınaq imtahanları keçirilirdi. Bu da bizim imtahana daha yaxşı hazırlaşmağımıza əlverişli imkan yaradırdı. Bununla belə mən belə bir qənaətdəyəm ki, qəbul imtahanına müstəqil şəkildə hazırlaşmaqla da uğurlu nəticə əldə etmək olar. Ancaq indiki şəraitdə ən yüksək bal toplamaq üçün həm də hazırlıq kursuna getmək və ya repetitor xidmətindən istifadə etmək lazımdır".

***"Abituriyent bütün diqqətini hazırlıq prosesinə yönəltməlidir"***

Xavər bildirir ki, imtahana hazırlaşan abituriyent bütün diqqətini hazırlıq prosesinə yönəltməlidir: "Qəbul imtahanına hazırlığa, əsasən, 10 və 11-ci siniflərdə daha çox vaxt ayrılır. Bu iki il müddətində əyləncəyə, əlavə məşğuliyyətlərə bir qədər ara vermək məsləhətdir. Bu dövrdə abituriyent gərək bütün diqqətini hazırlığa yönəltsin. Çünki hazırlıq prosesində yol verilən yanlışlıq və səhlənkarlıq abituriyentin tələbə olmaq arzusunu ürəyində qoya bilər. Mən qəbula hazırlaşdığım iki il ərzində hətta televizora da baxmırdım. Boş vaxtım, demək olar ki, olmurdu. Səhər dərsə, dərsdən sonra isə hazırlığa gedirdim. Evə gəlib bir qədər dincəldikdən sonra yenidən dərs oxumağa başlayırdım. İmtahanda yüksək nəticə göstərmək istəyən abituriyent məncə qəbula belə hazırlaşmalıdır".

***"Abituriyentlərə valideynlərin dəstək olması çox vacibdir"***

X.Feyzullayeva qəbula hazırlaşan zaman valideynlərinin ona böyük dəstək olduğunu qeyd edir: "Mənim imtahana rahat hazırlaşmağım üçün hər cür şərait yaradılmışdı. Anam hər zaman mənə güvəndiyini və məndən yüksək nəticə gözlədiyini deyirdi. Bu sözlər məndə özümə inam hissini artırırdı. Məlumdur ki, imtahan öncəsi hər bir abituriyent həyəcanlı olur. Bəzən hətta ən yaxşı oxuyan şagird də həyəcanlandığı üçün fikrini toplaya bilmir. Mən də imtahan öncəsi bir qədər həyəcanlı idim. Ancaq anamın mənə ürək-dirək verməsindən sonra həyəcanım keçdi. Odur ki, qəbula hazırlaşan abituriyentə valideynlərinin dəstək olması çox vacibdir.

Bəzən elə olur ki, abituriyent sınaq imtahanlarında aşağı bal toplayır. Valideynləri də buna görə uşağı sıxışdırır, bu qədər hazırlaşmağına baxmayaraq niyə belə aşağı nəticə göstərdiyinə görə onu danlayırlar. Hətta qəbul imtahanında aşağı bal toplayacağı təqdirdə onu cəzalandıracaqları ilə hədələyirlər. Mən valideynlərin övladları ilə bu cür rəftar etmələrini pisləyirəm. Valideyn imtahana hazırlaşan övladına dəstək olmalıdır. Mən həm qəbula hazırlaşan zaman, həm də imtahandan sonra valideynlərimdən böyük dəstək gördüm. Onlar mənə çox inanır və deyirdilər ki, sən ali məktəbə yüksək balla qəbul olacaqsan. Valideynlərimin mənə olan inamını doğrultduğum üçün çox xoşbəxtəm".

***"Sınaq imtahanları vasitəsilə abituriyentlər əldə etdikləri biliyi yoxlamaq imkanı qazanırlar"***

X. Feyzullayeva hazırlıq müddətində Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən təşkil edilən sınaq imtahanlarının çoxunda iştirak etdiyini bildirir: "Hesab edirəm ki, abituriyentlər sınaq imtahanları vasitəsilə öz bilik səviyyələrini yoxlamaq, bu biliklərin qəbul imtahanında neçə bal toplamağa şans verdiyini müəyyənləşdirmək imkanı qazanırlar. Mən sonuncu sınaqdan 690 bal toplamışdım. Bu sınaqdan sonra artıq məndə 700 bal toplayacağıma inam yarandı".

***"Abituriyentlərin biliyi qəbul imtahanında ədalətli şəkildə qiymətləndirilir"***

X. Feyzullayeva vurğulayır ki, ali məktəblərə qəbul imtahanında tətbiq olunan test üsulu savadlı, bilikli və bacarıqlı abituriyentlərin seçilməsinə imkan yaradır. Hər bir abituriyent əmindir ki, onun biliyi qəbul imtahanında ədalətli şəkildə qiymətləndirilir. Buna görə də tələbə olmaq arzusunda olan hər kəs bütün diqqətini oxumağa yönəldir.

Onu da qeyd etmək istəyirəm ki, yalnız imtahan prosesi deyil, sənəd qəbulu mərhələsi də TQDK tərəfindən yüksək səviyyədə keçirilir. Elektron ərizə verən abituriyentlər üçün "Abituriyentin elektron ərizəsi"nin doldurulma qaydasının çap edilməsi, bu mərhələdə səhvlərə yol verməmək üçün nələrə diqqət yetirməli olduğunun izahı abituriyentlərin işini xeyli asanlaşdırır".

## Cahandar Camallı: *"Yüksək nəticə göstərmək üçün abituriyent qarşısına məqsəd qoymalı və bu istiqamət-də davamlı, sistemli çalışmalıdır"*



*Bu il maksimum nəticəyə imza ataraq 700 bal toplayan abituriyentlərdən biri də Cahandar Camallıdır. C.Camallı Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Çomaxtur kəndində anadan olub. 1997-ci ildə ailələri Bakı şəhərinə köçüb. 2000-ci ildə Bakının Xətai rayonundakı 263 saylı məktəbin birinci sinfinə daxil olub. Məktəbi yüksək qiymətlərlə bitirən Cahandar rekord nəticə ilə "Qafqaz" Universitetinin "Kompyuter mühəndisliyi" ixtisasına daxil olub.*

***"Hazırlıq müddətində vaxtı düzgün və səmərəli şəkildə bölmək, təkrar çalışmalara və test tapşırıqlarının həllinə də vaxt ayırmaq lazımdır"***

C.Camallı deyir ki, qəbul imtahanına hazırlaşan abituriyentin özünə və biliyinə güclü inamı olmalıdır: "Mən özümə, biliyimə inanırdım və əmin idim ki, yüksək bal toplayacağam. İmtahandan çıxanda 680-dən yuxarı bal gözləyirdim. Ancaq cavabları yoxlayandan sonra əmin oldum ki, balım 700-dür. Belə yüksək nəticə əldə etməyin xüsusi bir formulu yoxdur. Bunun üçün abituriyent qarşısına məqsəd qoymalı və bu yöndə davamlı, sistemli şəkildə çalışmalıdır. Hazırlıq müddətində vaxtı düzgün və səmərəli şəkildə bölmək, təkrar çalışmalara, test tapşırıqlarının həllinə də vaxt ayırmaq lazımdır. İmtahana psixoloji baxımdan da hazır olmaq vacibdir. Belə bir hazırlığı olmayan abituriyent imtahan vaxtı çox həyəcanlı olur. Bu isə onun diqqətinə, yaddaşına təsir edir, sualları cavablandırmasında səhvlərə yol verməsinə səbəb olur. Mən imtahanda çalışdım ki, həyəcanlanmayım. Düzdür, əvvəlcə həyəcanım var idi, ancaq sualların asanlığını görəndən sonra həyəcanım azaldı. Yüksək bal toplamağımın əsas səbəblərindən biri də valideynlərimin və yaxınlarımın mənə əvvəldən olan inamı idi ki, bu da məsuliyyətimi daha da artırırdı".

***"Hazırlıq kursunda dərslər sistemli şəkildə keçirilirdi"***

Cahandar deyir ki, "ixtisas qrupunu seçdikdən sonra mənim qəbul imtahanına necə və kimlə hazırlaşacağım sualı gündəmə gəldi. Seçim bir neçə variant arasında ola bilərdi: müstəqil hazırlaşma, repetitorla hazırlaşma və ya hazırlıq kursu xətti ilə hazırlaşma. Mən üçüncünü seçdim. Əlbəttə, bütün xidmət sahələrinə şamil olunan keyfiyyətli və keyfiyyətsiz anlayışları hazırlıq kurslarına da aid ola bilər. Xöşbəxtlikdən mənim getdiyim hazırlıq kursunda məşğələlər keyfiyyətli təşkil olunmuşdu.

Məlumdur ki, aşağı siniflərdə keçilən dərslərin hamısı olduğu kimi yadda qalmır. Ona görə də öyrəndiklərini təkrarlamaq, yada salmaq üçün ya müstəqil çalışmaq, ya hazırlıq kursuna, ya da repetitor yanına getmək lazım gəlir. Mən iki il hazırlıq kursunun dinləyicisi oldum.

Kursda vaxt cəhətdən çox itki olmurdu. Müəllimlər də işlərinə məsuliyyətlə yanaşır, dərslər sistemli şəkildə keçirilirdi. Bir neçə fənn üzrə dərslər eyni bir gündə keçildiyindən beyin yorulmurdu".

***"Qəbula hazırlaşan abituriyent sınağa nə qədər çox gedərsə, imtahanda bir o qədər az həyəcan keçirər"***

C.Camallı 11-ci sinifdən başlayaraq Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının təşkil etdiyi bütün sınaqlarda iştirak etdiyini bildirir: "Məncə, imtahanda həyəcanlanmamaq, özünü itirməmək üçün sınaq imtahanlarında mütəmadi iştirak etmək lazımdır. Qəbula hazırlaşan abituriyent sınaqlara nə qədər çox gedərsə, imtahanda bir o qədər az həyəcan keçirər, qorxu, stress halları azalar, nəticədə qəbul imtahanında biliyini daha dolğun nümayiş etdirər. Sınaq imtahanları abituriyentin bilik səviyyəsinin müəyyən edilməsində, bütövlükdə onun qəbul imtahanına hazırlığında mühüm rol oynayır. Mən 11-ci sinifdən etibarən TQDK-nın bütün sınaqlarında iştirak etmişəm. Son sınaqda 663 bal toplamışdım".

***"Test sisteminin tətbiqi zamanı biliyi yoxlanılanların hamısı üçün eyni şərait yaradılır"***

Cahandar imtahanın təşkili və keçirilmə prosesindən də razılıq edir: "Hər şey yaxşı təşkil olunmuşdu. Heç bir neqativ halla rastlaşmadım. Qəbul imtahanlarında tətbiq edilən mövcud test sistemi biliyin qiymətləndirilməsinin ədalətli meyarıdır. Bu sistemin tətbiqi zamanı biliyi yoxlanılanların hamısı üçün eyni şərait yaradılır. Bu amil gənclərdə biliyin obyektiv qiymətləndirilməsinə, hər kəsin ali məktəbə öz bilik və bacarığı ilə qəbul ola bilməsinə dərin inam yaradır.

İmtahanda təklif olunan test tapşırıqları tədris və qəbul proqramlarına, həmçinin dərsliklərə uygun idi. Odur ki, abituriyentlər keçilən dərsləri diqqətlə oxusalar, yüksək nəticə əldə edə bilərlər. Ancaq onu da nəzərə almaq lazımdır ki, imtahanda sualların hamısı eyni dərəcədə çətin və ya asan ola bilməz. Onların arasında çətin, məntiqli, düşündürücü suallar da olmalıdır. Mən bütün bunların imtahan prosesində şahidi oldum. Bütövlükdə imtahanların gedişindən razı qaldım».

***"Peşəkar bir kompyuter mütəxəssisi kimi cəmiyyətdə öz yerimi tutacağam"***

Cahandarın ən böyük arzusu mükəmməl bir kompyuter mühəndisi olmaqdır: «İndiki dövr kompyuter dövrüdür. Mən də bu ixtisası seçmişəm. Peşəkar bir kompyuter mütəxəssisi kimi yetişmək üçün əlimdən gələni edəcəyəm. Potensialıma və bilik səviyyəmə güvənirəm. İnanıram ki, peşəkar bir kompyuter mütəxəssisi kimi cəmiyyətdə öz yerimi tutacağam".

## Əli Əliyev: *«İmtahanda yüksək nəticə göstərmək üçün əzmli olmaq, öyrənməkdən, bilik əldə etməkdən zövq almaq, vaxtdan səmərəli istifadə etmək lazımdır»*



*Əli Əliyevi "Ağıl dəryası" teleyarışmasının qalibi kimi çoxları tanıyır. Bu yarışmanın şərtlərinə görə, burada iştirak edib finala çıxan şagirdə tam orta təhsil haqqında attestat verilir. O da bu yarışmanın qalibi olduğundan buraxılış imtahanını vermədən, tam orta təhsil haqqında attestat alıb.*

*Ə.Əliyev qəbul imtahanında 125 sualın hamısına düzgün cavab verərək 700 bal toplayıb. O, "Qafqaz" Universitetinin "İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi" ixtisasına daxil olub. Əli 287 saylı "Zəkalar" liseyinin məzunudur. 8-ci sinfə qədər Xətai rayonundakı ingilis dili təmayüllü 27 saylı orta məktəbdə təhsil alıb, sonra təhsilini " Zəkalar" liseyində davam etdirib. Respublika üzrə keçirilən müxtəlif olimpiada və müsabiqələrdə iştirak edərək ilk yerləri tutub. Əli "Ağıl dəryası" yarışması ilə yanaşı müxtəlif televiziya kanallarında yayımlanan "Virtual rinq", "Xəmsə" yarışmalarında da iştirak edib.*

*Ə.Əliyev deyir ki, imtahanda yüksək bal toplayıb arzusunda olduğu ali məktəbə qəbul olacağına inanırmış: "Yaxınlarım məndən 700 bal gözləyirdi. Ancaq mən ilk sınaqlarda ən yüksək nəticə göstərəcəyimə yüz faiz əmin deyildim. Çünki imtahanöncəsi heç bir abituriyent deyə bilməz ki, o, verilən sualların hamısına düzgün cavab verəcək. Mən yalnız test suallarının hamısına düzgün cavab yazdıqdan sonra 700 bal toplayacağıma əmin oldum".*

***"Abituriyentdə özünə və biliyinə güclü inam olmalıdır"***

Ə.Əliyevin sözlərinə görə, tələbə adını qazanmaq üçün abituriyentdə, hər şeydən öncə, özünə və biliyinə inamı olmalıdır. Bu inam məqsədə çatmaq uğrunda mübarizədə insana mənəvi qüvvət verir. Özünəinamın yüksək səviyyədə hazırlıqla tamamlanması mütləq müsbət nəticəsini göstərir. Mən bir il sistemli şəkildə çalışdım. Bütün diqqətimi, vaxtımı həm dərslərimə, həm də qəbul imtahanına hazırlığa yönəltdim.

Əlavə məşğuliyyət və əyləncələrə müəyyən qədər ara verdim. Ümumiyyətlə, qəbul imtahanlarına hazırlaşan abituriyentlərin dərsdən başqa digər işlərə çox vaxt ayırmalarını doğru hesab etmirəm. Hazırlıq prosesi zamanı məsuliyyətsizlik, səhlənkarlıq abituriyenti tələbə olmaq şansından məhrum edə bilər. İmtahanda yüksək nəticə göstərmək üçün əzmli olmaq, öyrənməkdən, bilik əldə etməkdən zövq almaq, vaxtdan səmərəli istifadə etmək lazımdır».

***"Abituriyent həm hazırlığa, həm də istirahətə vaxt ayırmalıdır"***

Ə.Əliyev qeyd edir ki, imtahana hazırlaşan abituriyentin cəmiyyətdən, əlavə məşğuliyyətlərdən tamamilə təcrid olunması da doğru deyil: "Mən vaxtımın çoxunu hazırlığa, az bir qismini isə istirahətə ayırırdım. Televizora baxırdım, kompyuterdə işləyirdim, yoldaşlarımla ünsiyyətdə olurdum. Hətta arada vaxt tapıb dostlarımla futbol da oynayırdım. Hazırlıq zamanı vaxtı düzgün böldüyüm üçün tam şəkildə hazırlaşmağa, öyrəndiklərimi bir daha təkrarlamağa və istirahət etməyə kifayət qədər vaxtım olurdu. Bəzən həddən artıq yükləndiyimi, yorulduğumu hiss edəndə dərhal ara verir və maraqlı bir kinoya baxmaqla yorğunluğumu çıxarırdım. Ancaq heç vaxt hazırlığa məsuliyyətsiz yanaşmırdım. Çünki ali məktəbə yüksək nəticələrlə qəbul olmağı qarşıma məqsəd qoyduğumdan hər zaman birinci planda hazırlıq dayanırdı. Əyləncə isə ikinci plana keçirdi".

*"Repetitor yanına getmədən də qəbul imtahanında yüksək nəticə əldə etmək olar"*

Ə.Əliyev deyir ki, imtahana hazırlaşan abituriyentin ona düzgün istiqamət verən, yüksək səviyyədə hazırlaşmasına yardımçı olan repetitora ehtiyacı olur: "Heç bir repetitor yanına getmədən məktəb dərsliklərini dərindən mənimsəyib qəbul imtahanlarından uğurlu nəticə əldə etmək mümkündür. Ancaq yüksək nəticə göstərmək üçün repetitor xidmətindən istifadə etmək lazım gəlir. Mən 11-ci sinifdən başlayaraq 5 fəndən repetitor yanına getmişəm. Əgər repetitor xidmətindən istifadə etməsəydim, maksimum 600-650 bal toplayardım. Repetitor abituriyentdə məsuliyyət hissi yaradır, ona düzgün istiqamət verir".

*"Sınaq imtahanları abituriyentlərin imtahana psixoloji cəhətdən alışmalarına böyük kömək olur"*

Məlumdur ki, qəbul imtahanlarına hazırlaşan abituriyentlərin öz hazırlıq səviyyələrini yoxlamaları, test imtahanının texnologiyasına bələd olmaları üçün TQDK hər il həm paytaxtda, həm də bölgələrdə sınaq imtahanları təşkil edir. Ə.Əliyev qeyd edir ki, mən də hazırlıq prosesi boyunca TQDK tərəfindən təşkil edilən sınaqlarda iştirak etmişəm. Fikrimcə, sınaqlar abituriyentin qəbul imtahanına hazırlığında çox mühüm rol oynayır. İştirak etdiyim sınaqlarda həmişə 600-dən yuxarı bal toplayırdım. Ən yüksək nəticəni isə axırıncı sınaqdan əldə etmişdim: 696 bal. Sınaq imtahanları maksimum bal toplamağıma yardımçı oldu, mənə çox şey qazandırdı. Bu imtahanlarda xeyli təcrübə topladığım üçün qəbul imtahanı zamanı gərginlik keçirmədim. Ümumiyyətlə, qəbul imtahanı öncəsi abituriyentlər, adətən, stress və həyəcan keçirirlər. Bu da, təbii ki, imtahanın nəticələrinə öz təsirini göstərir. Zənnimcə, imtahana psixoloji baxımdan hazır olan abituriyentlər imtahan prosesində daha sərbəst və rahat olur, psixoloji gərginlik keçirmirlər. Eləcə də texniki səhvlərə və vaxt itkisinə yol vermirlər. Hesab edirəm ki, imtahandan əvvəl psixoloji hazırlıq vacib şərtdir. TQDK-nın keçirdiyi sınaqlar abituriyentlərin imtahana psixoloji cəhətdən alışmalarına böyük kömək olur. Çünki sınaq imtahanları zamanı sual kitabçaları, cavab kartları, imtahan müddəti və digər amillər eynilə qəbul imtahanlarının metod və texnologiyalarına uyğun təşkil olunur. Abituriyentlər də özlərini qəbul imtahanında olduğu kimi hiss edirlər. Bu, bir neçə sınaq imtahanından sonra abituriyentlərdə adi hal alır və nəticədə stress, həyəcan da aradan qalxır".

*"TQDK-nın nəşr etdiyi vəsaitlər abituriyentlərin məktəb dərsliklərindən öyrəndikləri bilikləri tamamlayır"*

Ə.Əliyev göstərir ki, hazırlıq prosesi zamanı o, dərslik materialları ilə yanaşı, TQDK-nın nəşr etdiyi əlavə materiallardan, test tapşırıqlarından da istifadə edib: "TQDK hər il fənlər üzrə qəbul proqramlarının məzmun və tələbinə uyğun olan vəsaitlər hazırlayıb nəşr edir. Bu vəsaitlər abituriyentlərin orta məktəb dərsliklərindən öyrəndikləri bilikləri tamamlayır, sistemləşdirir və biliklərinin möhkəmləndirilməsi üçün əhəmiyyətli rol oynayır. Mən mütəmadi olaraq "Abituriyent" jurnalını izləyir, TQDK-nın nəşr etdiyi vəsaitləri alıb oxuyurdum. Bu gün abituriyentlərin qəbul imtahanlarına səmərəli hazırlaşması üçün hər cür şərait yaradılıb: elmi-metodiki materiallar, dərs vəsaitləri, test tapşırıqları, elektron vəsaitlər və s. hazırlanıb. Hər bir abituriyent bu imkanlardan maksimum səmərəli istifadə etməlidir".

Peşə seçimində özəl universiteti dövlət ali məktəblərindən üstün tutmasına gəlincə isə Ə.Əliyev bildirir ki, "Qafqaz" Universitetində təhsil alan tanış tələbələrdən eşitmişdim ki, burada yüksək səviyyədə təhsil almaq üçün hər cür şərait var. Üstəlik bu universitetdə ingilis dili daha yüksək səviyyədə tədris edilir. Mən də burada seçdiyim ixtisas üzrə bir peşəkar kimi yetişəcəyimə əminəm.

*"Ali məktəblərə qəbul üçün test üsulundan daha optimal variant yoxdur"*

Ə.Əliyev bildirir ki, qəbul imtahanlarının test üsulu ilə keçirilməsi biliyi, savadı olan abituriyentlərə ali məktəb tələbəsi olmaq imkanı yaradır: "Qəbul imtahanları çox yüksək səviyyədə təşkil olunmuşdu. Suallar bütünlüklə məktəb dərsliklərinə əsaslanırdı. Abituriyentlərə öz bilik səviyyələrini nümayiş etdirə bilmək üçün hər cür şərait yaradılmışdı. Mən həm sənəd qəbulu prosesindən, həm də qəbul imtahanlarının təşkili və keçirilməsi səviyyəsindən çox razı qaldım. Fikrimcə, ali məktəblərə qəbul üçün test üsulundan daha optimal variant yoxdur".

## Aytac Xəlilli: *"Hər bir abituriyent vaxtdan səmərəli istifadə etməli, sistemli hazırlaşmalı, oxumağı vərdişə çevirməlidir"*



*Aytac Xəlilli II ixtisas qrupu üzrə keçirilən qəbul imtahanında ən yüksək bal – 695 bal toplayaraq, Azərbaycan Diplomatik Akademiyasının "Biznesin idarə edilməsi" ixtisasına daxil olub. Bakı Türk Liseyinin məzunudur.*

*A.Xəlillinin orta məktəbdə oxuduğu müddətdə fənlər üzrə cari qiymətlərinin ən azı 75 faizi, illik qiymətlərinin isə hamısı "əla" olub və bununla yanaşı, nümunəvi davranışı ilə fərqlənib, müxtəlif fənn olimpiadalarında, bilik yarışlarında, müsabiqə və layihələrdə iştirak edib. Bütün bunlar nəzərə alınaraq Aytac buraxılış sinfinin məzunu kimi qızıl medala layiq görülüb. Anası paytaxtda fəaliyyət göstərən bağçalardan birində tərbiyəçi işləyir. Atası isə ixtisasca mühəndisdir.*

### *"Qəbul imtahanına yüksək bal taplayacağıma əmin idim"*

A.Xəlilli deyir ki, təhsil aldığı liseyin nümunəvi, bilik və intellektual səviyyəsinə görə fərqlənən şagirdlərindən olub. Bütün bunlara görə müəllimlərim, ailəm, tanışlarım məndən yüksək nəticə gözləyirdi. Belə münasibət mənim üzərimə böyük məsuliyyət qoyurdu. Mən qəbul imtahanında yüksək bal toplayacağıma əmin idim. Biliyimə və hazırlıq səviyyəmə güvənirdim.

### *"Müvəffəqiyyət əldə etmək üçün abituriyent, ilk növbədə məqsədini dəqiq müəyyənləşdirməlidir"*

Aytacın fikrincə, hansı ixtisası seçəcəyinə qərar verməyən şagirdin qəbula hazırlıq səyləri uğurla nəticələnməyə bilər: "Müvəffəqiyyət əldə etmək üçün abituriyent, ilk növbədə məqsədini açıq müəyyənləşdirməlidir. Hansı universitetdə oxumaq istəyir? İxtisası nə olacaq? İddiası, istəyi imkanlarına uyğundumu? Abituriyent öz vəziyyətini bu sualların işığında dəyərləndirməlidir. "Bu hazırlıq məni məqsədimə çatdıracaqmı?"– deyə soruşmalıdır. İmkanlarına uyğun olmayan iddialar abituriyenti uğursuzluğa apara, inamını itirməsinə, ruhdan düşməsinə, dərslərdən uzaqlaşmasına səbəb ola bilər. Real məqsəd isə abituriyenti uğura aparar».

### *"Sistemli hazırlaşmaqla bərabər əyləncə və istirahətə də vaxt ayırmaq mümkündür"*

A.Xəlillinin fikrincə, həftəlik dərs oxuma proqramını hazırlayarkən, abituriyent fəaliyyətini həftənin günləri üzrə bölməlidir. Uğur əldə etmək üçün fəaliyyətini "Sistemli, səmərəli və planlı şəkildə hazırlaşmaq" prinsipi üzrə qurmalıdır. Bu prinsipə əsaslanan hazırlıq proqramında əyləncə və istirahətə də vaxt ayırmaq mümkündür. Ən yüksək nəticələri əldə etməyi bacaran insan yalnız böyük istedad sahibi olan deyil, həm də özündə olan gücü böyük bir çalışqanlıqla gerçəkləşdirməyi bacaran insandır».

### *"Oxumaq istəyi olmadan müvəfəqqiyyət əldə etmək çətindir"*

Aytac göstərir ki, qəbul imtahanına hazırlaşan abituriyentdə hazırlıq vərdişi formalaşmalıdır. Bir də onda oxumağa, öyrənməyə ürəkdən istək olmalıdır: "Oxumaq istəyi olmadan müvəfəqqiyyət əldə etmək çətindir. Bəzi şagirdlər oxumalı olduğu səhifələrə dəqiqələrcə baxır, amma, elə bil ki, ayıqkən yuxuda olurlar. Bu, diqqətin dərsdə olmaması deməkdir və hazırlığa mənfi təsir göstərən amildir. Buna yol vermək olmaz.

Bir də yersiz problemlərlə beyni yükləmək lazım deyil. Hər şeyin öz vaxtı var. Səni narahat edən problemi o an həll etmək mümkündürsə, onu dərsə başlamazdan əvvəl həll et, mümkün deyilsə, bu problemin həllini təxirə salmaq lazımdır".

### *"Abituriyent sınaqdan-sınağa püxtələşir"*

A.Xəlilli qeyd edir ki, qəbul imtahanına hazırlaşarkən TQDK-nın keçirdiyi bütün sınaqlarda iştirak etmək lazımdır: "Əvvəla, abituriyent sınaqdan-sınağa püxtələşir. Ən əsası, imtahan həyəcanı yoxa çıxır. İkincisi, bu və ya digər sualla qarşılaşanda hansı mövzunu yaxşı, hansını zəif mənimsədiyini

aşkar edirsən. Sınaqlar abituriyentdə vaxtdan səmərəli istifadə etmək bacarığı da formalaşdırır. Abituriyentin imtahanda ən böyük rəqibi vaxtdır. Vaxtdan səmərəli istifadə etməyin ən effektli yolu isə imtahanda bildiyin testdən başlamaqdır. Bu, həm də abituriyentin imtahanın əvvəlində olan həyəcanını aradan qaldırır. Ali məktəbə imtahan verdiyi gün abituriyent üçün ən yaddaqalan, ən maraqlı, ən həyəcanlı, bəziləri üçünsə qorxulu və narahatçılıqla müşayiət olunan gündür. İmtahan insan həyatı üçün önəmli bir mərhələdir. Bu mərhələni uğurla keçməyin bir yolu var: imtahana yaxşı hazırlaşmaq, ona həm intellektual, həm psixoloji, həm də fiziki cəhətdən hazır olmaq lazımdır".

***"İstirahət etmədən, aramsız oxuyanda, yuxu ehtiyacı ödənilməyəndə abituriyentdə yorğunluq, əzginlik halları baş qaldırır"***

Aytac öz təcrübəsindən çıxış edərək qəbula hazırlaşan gələcək abituriyentlərə məsləhət və tövsiyələrini verir. "İmtahana sistemli şəkildə hazırlaşmaq lazımdır, istirahət etmədən, aramsız çalışanda, yuxu ehtiyacı ödənilməyəndə abituriyentdə yorğunluq, əzginlik halları baş qaldırır. Yuxusuz gecələr üst-üstə gələrsə, qavrama qabiliyyəti də zəifləyər.Yuxunuzu azaltmaq istəyirsinizsə, bunu birdən-birə etməyin. 3-4 gündən bir 25-30 dəqiqə daha az yata bilər, həftədə orta hesabla 1 saat daha tez oyana bilərsiniz. Oxumaq bir vərdişdir. Səhər və ya günortadan sonra oxumaq daha çox səmərə verir. Bu saatları lazımsız şeylərə sərf etmək düzgün deyil. Ümumiyyətlə, oxumağı vərdiş halına gətirmək və bu vərdişi ömrü boyu davam etdirmək lazımdır.

Öyrənmədə təkrarlama da vacib şərtdir. Oxuduqlarınızı vaxtaşırı təkrar edin. Həftəlik və aylıq təkrarlar daha çox səmərə verir. Bu yolla nələri nə dərəcədə yadda saxladığınızı və ya unutduğunuzu asanlıqla müəyyən edə bilərsiniz. Yaxşı olar ki, sistemli təkrarlar üzrə xüsusi proqram hazırlayasınız".

## Elgiz Muradbəyli: *«Abituriyentin biliyi onun imtahanda əldə etdiyi nəticəyə əsasən müəyyən olunur»*



*Bu il ali və orta ixtisas təhsili müəssisələrinə III ixtisas qrupu üzrə keçirilən qəbul imtahanında ən yüksək balı Elgiz Muradbəyli toplayıb: 695 bal. O, Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olub və Prezident təqaüdünə layiq görülüb. Elgiz 1993-cü ildə Tovuz rayonunda anadan olub. Binəqədi rayonunda yerləşən 276 nömrəli orta məktəbi yüksək qiymətlərlə bitirib. Respublika üzrə keçirilən müxtəlif olimpiada və müsabiqələrdə iştirak edərək ilk yerləri qazanıb. Atası ixtisasca mühəndis, anası isə evdar qadındır. E.Muradbəylinin ən böyük arzusu mükəmməl təhsil alıb, yüksək səviyyəli hüquqşünas olmaqdır.*

***"Heç bir oxuyub, zəhmət çəkən şagirdin əməyi hədər getmir"***

Elgiz qeyd edir ki, qəbul imtahanında yüksək nəticə əldə etmək üçün ayrı-ayrı mövzulara, məsələlərə yaradıcı surətdə yanaşmaq lazımdır: "Dərsləri həvəslə, maraqla, dərk etməklə oxumaq lazımdır. Bu zaman oxuduğun mövzu adamın yadında daha yaxşı qalır. Mən qəbul imtahanına lap aşağı siniflərdən hazırlaşmağa başlamışam. Özü də bu işə həvəslə qoşulmuşam. Son iki ildə isə hazırlığa daha çox vaxt ayırırdım. Diqqətimi, vaxtımı tam şəkildə oxumağa yönəltmişdim. Bütün qohumlar, dostlar, yoldaşlar məndən yüksək nəticə gözləyirdilər. Özüm də potensialıma bələd olduğum üçün yüksək bal toplayacağıma inanırdım. İmtahanda da gözlənilən nəticəni göstərdim. Tamamilə əminəm ki, heç bir oxuyub, zəhmət çəkən şagirdin əməyi hədər getmir. Əgər abituriyent hazırlaşıb, tələb olunan səviyyədə bilik-bacarıq əldə edirsə, imtahanda mütləq uğurlu nəticə əldə edəcəkdir".

***"İmtahan abituriyentin öz qabiliyyətini nümayiş etdirə bilməsi üçün yaxşı bir şansdır"***

E.Muradbəyli deyir ki, imtahan nəyi hansı dərəcədə bildiyini müəyyən etmək üçün yaxşı bir imkandır, qabiliyyətini nümayiş etdirmək üçün bir şansdır: "Abituriyentin biliyi onun imtahanda əldə etdiyi nəticəyə əsasən müəyyən olunur. O, bunun üçün üzərinə düşən vəzifəni bacardığı qədər yüksək səviyyədə yerinə yetirməlidir. Təbii ki, imtahanda yeganə meyar bilikdir. Abituriyent imtahana yaxşı hazırlaşmaq üçün özünə ciddi rejim yaratmalıdır. Vaxtını düzgün bölməli, gərgin zehni əməyi qidalanma, yuxu və istirahətlə düzgün əlaqələndirməlidir. Mən qəbula hazırlıq zamanı bütün bunlara əməl etdim. Böyük inamla, tükənməz enerji ilə çalışdım və tələbə adını qazandı".

*"Hər bir abituriyent vaxtını düzgün planlaşdırmalı, hər bir saatı, günü səmərəli keçirməyi bacarmalıdır"*

Elgiz deyir ki, hər bir abituriyent dərk etməlidir ki, imtahana ilboyu, sistemli şəkildə hazırlaşmaq lazımdır: "İmtahanda çətinlik çəkməmək üçün gündəlik məktəb dərslərini də öyrənməli, dərslərdə aktiv olmalı, vaxtdan səmərəli istifadə etməlidir. Əlbəttə, hamının bütün fənləri əla bilməsi çətin məsələdir. Buna baxmayaraq, abituriyent seçdiyi ixtisas qrupunda humanitar və ya dəqiq elmlərin üstünlük təşkil etməsindən asılı olmayaraq, bütün fənlər üzrə baza biliklərinə yiyələnməlidir.

Abituriyent vaxtını düzgün planlaşdırmalı, hər bir saatı, günü səmərəli keçirməyi bacarmalıdır. Səhər, günorta və axşam saatlarında nə edəcəyini əvvəlcədən müəyyənləşdirməli, səhər saatlarını mümkün qədər öyrənməyə, günorta saatlarını bir qədər dincəlməyə, axşam saatlarını isə yenə də dərslərə hazırlaşmağa və ya təkrarlara sərf etməlidir. Eyni zamanda, istirahət və yuxu üçün də vaxtı düzgün müəyyənləşdirilmək vacibdir".

*"İmtahana yaxşı hazırlıqlı olmaq imtahan həyəcanını azaltmaq üçün ən yaxşı üsuldur"*

E.Muradbəyli bildirir ki, imtahan həyəcanı şagirdin test suallarını yaxşı cavablandırmaq məsuliyyətindən doğan narahatlıqdır. Bu, narahatlıq imtahan zamanı test suallarının düzgün cavablandırılmasına, normal düşünməyə mane ola, hətta yaddaşın zəifləməsinə də səbəb ola bilər: "İmtahana gələrkən, demək olar ki, hər bir abituriyent həyəcan keçirir - kimi çox, kimi nisbətən az. Əgər həyəcan normal həddi aşmırsa, bu sevindirici haldır - deməli, orqanizm özünü "tam səfərbər" edib və "sınağa hazırdır". Lakin həyəcan normal həddi aşaraq stress dərəcəsinə çatırsa - bu, neqativ haldır. İmtahana yaxşı hazırlıqlı olmaq imtahan həyəcanını azaltmaq üçün ən yaxşı üsuldur. TQDK-nın keçirdiyi sınaq imtahanları abituriyenti qəbul imtahanına psixoloji və texnoloji cəhətdən hazırlayır. Mən bunu nəzərə alaraq Dövlət Komissiyasının təşkil etdiyi bütün sınaqlarda iştirak etdim. Mövzuların təkrarlanmasına gəlincə isə, bunu imtahana bir gün qalmış deyil, ondan bir neçə gün və ya bir həftə əvvəlki vaxtda yerinə yetirmək məsləhətdir."

*"Abituriyent istəyinə, marağına uyğun ixtisası seçməlidir"*

Elgiz qeyd edir ki, ixtisas seçiminə heç kimin təsiri olmayıb: "Bu ixtisası özüm seçmişəm. Hüquqşünas olmağa böyük həvəsim var. Çalışacağam ki, bu ixtisas üzrə mükəmməl təhsil alım, Prezident təqaüdçüsü kimi şərəfli adı bütün təhsil müddətində saxlayım və yaxşı bir mütəxəssis olum.

Məncə, ixtisas seçimi zamanı fikir verməк lazımdır ki, sənin yiyələnmək istədiyin ixtisas üçün hansı təhsil müəssisəsi daha uyğundur. Ümumiyyətlə, abituriyent istəyinə, marağına uyğun ixtisası seçməlidir. Bəzən gənclər ixtisas seçərkən müəyyən çətinliklərlə qarşılaşırlar. Dünyada minlərcə peşə mövcuddur. Bu müxtəliflikdən necə baş çıxarmalı? Hansı peşəni seçməli ki,o həyat yolunda sənə uğur gətirsin. Məncə, ixtisas seçimində əsas götürülməli amillər içərisində ən mühüm olanları istək, maraq, üstəlik də bacarıq və qabiliyyətdir. Bilməyən şagird və abituriyentlərə xatırlatmaq istərdim ki, TQDK gənclərin ixtisas seçiminə kömək məqsədilə "Ali təhsil müəssisələrinin bakalavr ixtisasları" adlı 4 kitabdan ibarət çox dəyərli bir vəsait buraxıb. Hansı ixtisas üzrə mütəxəssislərin hansı ali təhsil müəssisələrində hazırlandığını bilmək, hər bir ixtisasın mahiyyəti, təyinatı, xarakteristikası və məzunların gələcək iş yerləri haqqında məlumat almaq üçün mütləq bu vəsaiti oxumaq lazımdır".

## Aygün Əsgərli: *"Yüksək səviyyədə ali təhsil almağı, Vətənimə yararlı bir mütəxəssis kimi yetişməyi qarşıma məqsəd qoymuşam"*



*Bu il ölkənin ali məktəblərinə keçirilən qəbul imtahanlarında yüksək nəticə göstərən abituriyentlərdən biri də Aygün Əsgərlidir. Bakı şəhərı 2 saylı texniki və humanitar elmlər təmayüllü liseyin məzunudur. 696 balla Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasına daxil olub. O, 5-ci sinfə qədər 158 saylı orta məktəbdə təhsil alıb, sonra təhsilini 2 saylı orta texniki və humanitar elmlər təmayüllü liseydə davam etdirib. Respublika üzrə keçirilən müxtəlif olimpiada və müsabiqələrdə iştirak edib. A.Əsgərlinin ən yaxşı oxuduğu fənlər dəqiq və təbiətşünaslıq fənləri olub.*

*Mütaliə etməyi sevir, daim öz üzərində çalışır, ingilis dilini mükəmməl öyrənmək üçün kurslara gedir. Ən böyük arzusu isə yüksək təhsilli, professional bir həkim olmaqdır.*

***"Həkim olmağı qarşısına məqsəd qoyan hər bir gənc ilk öncə seçdiyi ixtisasın məsuliyyətini dərk etməlidir"***

A.Əsgərli deyir ki, qəbul olunduğu universiteti və fakültəni sadəcə ali təhsil diplomu almaq xatirinə seçməyib: "Həkim olmaq mənim uşaqlıq arzumdur. 5-ci sinifdən qərara gəldim ki, böyüyəndə həkim olum. Mən həkimliyi çox müqəddəs və eyni zamanda məsuliyyətli bir peşə hesab edirəm. Yardıma möhtac olan insanlara kömək etmək, onların sağlamlığının keşiyində durmaq böyük məsuliyyətdir. Xəstəyə qoyulan səhv diaqnoz, təyin edilən yalnış müalicə kursu onun həyatını itirməsi ilə nəticələnə bilər. Ona görə də həkim olmağı qarşısına məqsəd qoyan hər bir gənc ilk öncə seçdiyi ixtisasın məsuliyyətini dərk etməlidir. Sözün əsl mənasında peşəkar bir həkim kimi yetişmək üçün yorulmadan oxumalı və tibb elminin bütün incəliklərinə yiyələnməlidir. Yüksək ixtisaslı həkim kimi formalaşmalıdır ki, öz vəzifə borcunu layiqincə yerinə yetirə bisin. Mən yüksək səviyyədə ali təhsil almağı, Vətənimə yararlı bir mütəxəssis kimi yetişməyi qarşıma məqsəd qoymuşam".

***"Valideynlərim seçimimi müsbət qarşılayıb məni dəstəklədilər"***

A.Əsgərli bildirir ki, ixtisas seçimimə valideynlərim tərəfindən heç bir müdaxilə olmayıb: "Valideynlərim seçimimi müsbət qarşılayıb məni dəstəklədilər. Onların ən böyük arzusu məni yüksək təhsilli, peşəkar bir həkim görməkdir. Hesab edirəm ki, valideynlərin ixtisas seçimi zamanı övladlarına müdaxiləsi düzgün deyil. Belə müdaxilə uşağın ürəyincə olmayan, istəmədiyi ixtisası seçməsinə gətirib çıxarar. Qeyd edim ki, yüksək nəticə əldə etməyimdə də valideynlərimin rolu böyük olub. Onlar hər zaman mənə dəstək olur və imtahana yüksək səviyyədə hazırlaşmağım üçün şərait yaradırdılar. Bu dəstək sayəsində arzumu reallaşdıra bildim".

***"İmtahan sualları bütünlüklə dərslik materiallarına əsaslanırdı"***

A.Əsgərli söyləyir ki, arzusunda olduğu "Müalicə işi" ixtisasına daxil olmaq üçün iki il çox ciddi şəkildə hazırlaşıb: "Liseydə oxuyan zaman bütün fənlər üzrə qiymətlərim 4-5 olub. Mən hər zaman məktəbdə tədris olunan fənləri səylə oxuyur, dərslərdə fəal iştirak edirdim. Fikrimcə, hər bir şagird dərslərə ciddi fikir verməli və yaxşı oxumalıdır. Çünki imtahan sualları bütünlüklə dərslik materiallarına əsaslanır. Məktəbdə yaxşı oxuyan şagird üçün qəbul imtahanına hazırlaşmaq çətin olmur. Mən 10-cu sinifdən etibarən qəbul imtahanına daha ciddi və sistemli şəkildə hazırlaşmağa başladım. Repetitor xidmətindən də istifadə edirdim. Müəllimlər tərəfindən verilən tapşırıqları vaxtlı - vaxtında həll edir və bütün materialları öyrənirdim. Hazırlıq zamanı Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən çap olunan vəsaitlərdən də istifadə edirdim. İmtahana yüksək səviyyədə hazırlaşdığım üçün 700 bal toplayacağımı gözləyirdim. Düzdür, imatahan başlayanda bir qədər həyəcanlı idim. Ancaq suallarla tanış olan kimi həyəcanım keçdi. Çünki suallar mənə çətin görünmədi. Ancaq bir sualı cavablandırmadığımdan 696 bal topladım".

***"Sınaq imtahanları abituriyentlərə çox şey qazandırır"***

A.Əsgərli 10-cu sinifdən etibarən Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən təşkil olunan bütün sınaqlarda iştirak etdiyini bildirir: "Sınaq imtahanlarında iştirakım mənə çox şey qazandırdı. Bu imtahanlarda müəyyən qədər təcrübə topladığım üçün qəbul imtahanı zamanı həyəcan, gərginlik, psixoloji sıxıntı keçirmədim. İlk sınaqlarda 600-ə yaxın nəticə göstərirdim. Sonra tədricən nəticələrim yüksəldi və 700-ə yaxın bal toplamağa başladım. Mən TQDK-nın keçirdiyi sınaq imtahanları vasitəsilə bilik səviyyəmi yoxlamaq imkanı qazandım. Qəbula həm psixoloji, həm də texnoloji cəhətdən hazırlıq keçdim".

***"Qəbul imtahanı yüksək səviyyədə təşkil olunmuşdu"***

A.Əsgərdi ali məktəblərə qəbul imtahanlarının keçirilmə səviyyəsindən razı qaldığını vurğulayır: "Hər bir abituriyent imtahan zamanı bilik səviyyəsinə uyğun nəticə əldə etdi. İmtahan yüksək səviyyədə təşkil olunmuşdu. Abituriyentlərə öz biliklərini nümayiş etdirmək üçün hər cür şərait yaradılmışdı. Ümumiyyətlə, gənclərimiz arasında qəbul imtahanlarında biliyin obyektiv

qiymətləndirilməsinə, hər kəsin ali məktəbə öz bilik və bacarığı ilə qəbul ola bilməsinə inam güclüdür. Bu da onlarda elmə, təhsilə, oxumağa olan həvəsi daha da artırır".

*"Yüksəkixtisaslı həkim kimi xalqıma xidmət etmək istəyirəm"*

Gələcək planlarından söz asan A.Əsgərli qeyd edir ki, gələcəkdə təhsilini xarici ölkələrin nüfuzlu universitetlərindən birində davam etdirməyi düşünür: "Ümid edirəm ki, Azərbaycan Tibb Universitetində savadlı professor-müəllim heyətindən ixtisas bilik və bacarıqları almaq sayəsində layiqli kadr kimi formalaşacağam. Mənim üçün önəmli olan öncə təhsilimi bu ali təhsil ocağında başa vurmaq, sonra isə ixtisas səviyyəmi daha da artırmaq üçün təhsilimi xarici universitetlərdən birində davam etdirməkdir. Təhsilimi başa vurduqdan sonra xalqıma yüksək ixtisaslı həkim kimi xidmət etmək istəyirəm".

*"Hər bir abituriyent özünü imtahana gümrah və xoş ovqatla getməyə kökləməlidir"*

A.Əsgərli gələcək abituriyentlərə məsləhətlərini də bildirir: "İmtahanda yüksək nəticə göstərmək üçün məktəbdə əzmlə çalışmaq, dərs oxumaqdan yorulmamaq, vaxtı səmərəli keçirmək lazımdır. Bir də imtahan öncəsi hər bir abituriyent özünü imtahana gümrah və xoş ovqatla getməyə kökləməlidir. İmtahana bir gün qalanda imtahan üçün zəruri sənədləri bir yerə yığmaq, bundan sonra təmiz havada gəzmək və yatıb dincəlmək lazımdır. Bu, imtahana gümrah və xoş ovqatla getmək üçün vacibdir. İmtahan zamanı əsas diqqət maksimum dərəcədə test suallarının cavablandırılmasına yönəlməlidir. Mübahisələrə qoşulmaq, hirslənmək, diqqəti yayındırmaq, cavablarda tələskənliyə yol vermək olmaz. Imtahan suallarına aid olmayan məsələlər haqqında düşünmə narahatlığı və həyəcanı artıra, zehni işin məhsuldarlığını və bütövlükdə müvəffəqiyyəti azalda bilər. Bir də gələcək abituriyentlərə demək istəyirəm ki, TQDK-nın təşkil etdiyi sınaq imtahanlarına mümkün qədər çox getsinlər. Sınaqlar abituriyentləri qəbul imtahanlarına psixoloji cəhətdən hazırlayır. Bir çox abituriyentlər elə düşünürlər ki, sınaqlar yalnız bilikləri yoxlamaq üçündür, amma onların əhəmiyyəti bununla məhdudlaşmır. Əslinə qalsa, sınaq imtahanları abituriyenti qəbul imtahanlarına hərtərəfli hazırlayan əvəzsiz mərhələdir. Bu mərhələdə məsuliyyətlə iştirak edən abituriyent qəbul imtahanlarında özünü daha rahat, sərbəst hiss edir və suallara daha dəqiq cavab verir".

*Hazırladı: Sevinc Qarayeva*

# YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR

# I QRUP



## FEYZULLAYEVA XAVƏR CANBULAT QIZI

700 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 299 saylı tam orta məktəbin məzunudur.



## MƏMMƏDOVA LƏMAN ELŞƏN QIZI

700 balla «Qafqaz» Universitetinin «İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 169 saylı tam orta məktəbin məzunudur.



## ƏLİYEV ƏLİ RƏHBƏR OĞLU

700 balla «Qafqaz» Universitetinin «İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 287 saylı «Zəkalar» liseyinin məzunudur.



## CAMALLI CAHANDAR İLQAR OĞLU

700 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 263 saylı tam orta məktəbin məzunudur.



## MƏMMƏDLİ NİCAT FƏXRƏDDİN OĞLU

695 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 239 saylı tam orta məktəbin məzunudur.



## SƏLİMZADƏ NATİQ XURŞUD OĞLU

695 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı özəl türk liseyi Mingəçevir filialının məzunudur.



## TAĞIZADƏ RAMİN TOFİQ OĞLU

695 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Fizika, riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



## ƏSGƏROV SURƏT ƏHMƏD OĞLU

692 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı özəl türk liseyinin Şirvan filialının məzunudur.



## CƏFƏRLİ TUNCAY AZAD OĞLU

690 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Ə.Mahmudov adına Şərur türk liseyinin məzunudur.



## ŞAMİLOV ŞAMİL İLQAR OĞLU

690 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı özəl türk liseyin «Dədə Qorqud» filialının məzunudur.



## HƏSƏNLİ AYDIN QALİB OĞLU

690 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



## MUSALI SAMİR İSMƏT OĞLU

690 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 76 saylı tam orta məktəbin məzunudur.



## BİNYAMİNOV HİKMƏT NAZİM OĞLU

690 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Siyəzən rayonu M.Müşfiq adına 2 saylı şəhər tam orta məktəbinin məzunudur.



## VƏLİYEV MƏHƏMMƏD TAĞI OĞLU

685 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur.



## HACIYEVA GÜLNAR VAQİF QIZI

685 balla Bakı Dövlət Universitetinin «Riyaziyyat» ixtisasına qəbul olub.
Salyan rayonu 4 saylı şəhər tam orta məktəbinin məzunudur.



## VƏLİZADƏ FİZULİ AZAD OĞLU

685 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 72 saylı məktəb-liseyin məzunudur.



## SADIXOV SÜLEYMAN SADIX OĞLU

685 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Proseslərin avtomatlaşdırılması mühəndisliyi (TEMPUS layihəsi)» ixtisasına qəbul olub.
Ağstafa rayonu A.Abdullayev adına 2 saylı şəhər tam orta məktəbinin məzunudur.



## HACIYEV CAVİD EMİN OĞLU

685 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
«Qafqaz» Azərbaycan-Türkiyə özəl gimnaziyasının məzunudur.



## BAYRAMOVA HƏCƏR TAHİR QIZI

685 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 246 saylı tam orta məktəbin məzunudur.



## SƏFƏRLİ İLKİN ƏLİXAN OĞLU

685 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Naxçıvan türk liseyinin məzunudur.



## FƏTULLAYEV ORXAN ƏBÜLFƏT OĞLU

685 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 279 saylı tam orta məktəbin məzunudur.



## MƏMMƏDBƏYLİ CAVAD RAFİK OĞLU

680 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Biləsuvar rayonu Ş.Yolçuoğlu adına Nərimankənd kənd tam orta məktəbinin məzunudur.



### MƏSİMLİ NURLAN ƏVVƏL OĞLU

680 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 263 saylı tam orta məktəbin məzunudur.



### İSAYEVA SƏBİNƏ ZAUR QIZI

680 balla M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının «Riyaziyyat» ixtisasına qəbul olub. Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



### İBRƏHİMLİ NAİL MİRƏYYUB OĞLU

675 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.



### MƏMMƏDOV HÜSEYN CƏFƏR OĞLU

675 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Laçın rayonu 1 saylı tam orta məktəbin məzunudur.



### HƏSƏNLİ QÜDRƏT MÖHÜBBƏT OĞLU

675 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



### RZAZADƏ SADİQ İDRƏT OĞLU

675 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 257 saylı tam orta məktəbin məzunudur.



### HƏSƏNLİ ORXAN MƏMMƏDƏLİ OĞLU

675 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
BDU-nun nəzdində «Gənc istedadlar» liseyinin məzunudur.



### SÜLEYMANLI SƏNAN SÜLEYMAN OĞLU

674 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Zaqatala rayonu 1 saylı şəhər tam orta məktəbinin məzunudur.



### ƏLİYEV NİCAT ƏLİ OĞLU

672 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Quba rayonu Z.Cəfərov adına 3 saylı şəhər tam orta məktəbinin məzunudur.



### DAŞDƏMİROV HİKMƏT ŞAİQ OĞLU

672 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur.



### HÜSEYNLİ FARİZ SURXAY OĞLU

672 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



### NƏSRULLAYEVA MƏRYƏM SÜBHAN QIZI

672 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 269 saylı tam orta məktəbin məzunudur.



## ƏLİZADƏ NƏRGİZ LƏTİF QIZI

672 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.



## BƏŞİRZADƏ NƏCMƏDDİN MİRNAMİK OĞLU

672 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı özəl türk liseyinin Lənkəran filialının məzunudur.



## ƏLİYEV MALİK RAMİS OĞLU

670 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Quba rayonu Z.Cəfərov adına 3 saylı şəhər tam orta məktəbinin məzunudur.



## MƏMMƏDOV VÜSAL BAYRAMƏLİ OĞLU

670 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Texniki-humanitar təmayüllü liseyin məzunudur.



## MƏMMƏDOVA GÜNEL PƏRVİZ QIZI

670 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 250 saylı tam orta məktəbin məzunudur.



## BAĞIROVA ULDUZ ELŞƏN QIZI

670 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Şəki rayonu 5 saylı şəhər tam orta məktəbinin məzunudur.



## BABAYEV HAFİZ FAZİL OĞLU

667 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 30 saylı tam orta məktəbin məzunudur.



## İSMAYILZADƏ MƏMMƏDCAMAL NƏBİ OĞLU

667 balla «Qafqaz» Universitetinin «İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi» ixtisasına qəbul olub.
Qax rayonu 1 saylı şəhər tam orta məktəbinin məzunudur.



## ALIŞOV TEHRAN RAFİQ OĞLU

665 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Masallı rayonu Musaküçə kənd tam orta məktəbinin məzunudur.



## ƏLƏKBƏROV ŞAMİL İSMAYIL OĞLU

665 balla «Qafqaz» Universitetinin «Mexanika mühəndisliyi» ixtisasına qəbul olub.
Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



## MEHDİYEV NƏVAİ ARİF OĞLU

662 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Cəbrayıl rayonu Tatar kənd tam orta məktəbinin məzunudur (Saatlı rayonunda yerləşir).



## HÜSEYNZADƏ İQRAR İLQAR OĞLU

662 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Müasir Təhsil Kompleksinin məzunudur.

# I QRUP





### NƏSİROV TOĞRUL VAQİF OĞLU

662 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Şirvan şəhəri E.İmanov adına 10 saylı şəhər tam orta məktəbinin məzunudur.



### ƏLİYEV ƏZİZAĞA ARZUMAN OĞLU

662 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 220 saylı tam orta məktəbin məzunudur.



### MAHMUDOVA AYİŞƏ QAİB QIZI

662 balla «Qafqaz» Universitetinin «Riyaziyyat və informatika müəllimliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 307 saylı tam orta məktəbin məzunudur.



### MUSTAFAYEV FƏRHAD FİRUZ OĞLU

661 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



### BƏYLƏROV İKRAM ƏKRƏM OĞLU

660 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Lənkəran rayonu Haftoni qəsəbə tam orta məktəbinin məzunudur.



### XƏLƏFLİ AYŞƏN ŞAHİD QIZI

660 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



### BAYRAMLI FİKRƏT NURƏDDİN OĞLU

660 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 104 saylı tam orta məktəbin məzunudur.



### SABİRLİ MURAD AYDIN OĞLU

659 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı özəl türk liseyi Mingəçevir filialının məzunudur.



### ŞİRİN KÖNÜL RAFAİL QIZI

659 balla Azərbaycan Memarlıq və İnşaat Universitetinin «Memarlıq» ixtisasına qəbul olub.
Azərbaycan-Rusiya ümumtəhsil mərkəzi «XXI əsr» Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində tam orta məktəbin məzunudur.



### İSAKOVA ARZU RƏŞİD QIZI

659 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 12 saylı tam orta məktəbin məzunudur.



### NAMAZOV MƏHƏMMƏD NAZİM OĞLU

657 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Proseslərin avtomatlaşdırılması mühəndisliyi (TEMPUS layihəsi)» ixtisasına qəbul olub.
Heydər Əliyev adına liseyin məzunudur.



### İSMAYILOVA FƏRİDƏ İLQAR QIZI

657 balla Bakı Dövlət Universitetinin «Riyaziyyat» ixtisasına qəbul olub.
Bakı şəhəri 70 saylı tam orta məktəbin məzunudur.



## ƏLİYEV NURLAN FAİQ OĞLU

657 balla «Qafqaz» Universitetinin «İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi» ixtisasına qəbul olub.
Heydər Əliyev adına liseyin məzunudur.



## LƏTİFZADƏ YUNİS İLTİMAS OĞLU

656 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı özəl türk liseyinin Lənkəran filialının məzunudur.



## HÜSEYNOV MİRQƏNİ MİR KAMAL OĞLU

655 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 276 saylı tam orta məktəbin məzunudur.



## ŞAXVERDİYEV İLHAM ARİF OĞLU

655 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Müasir Təhsil Kompleksinin məzunudur.



## QULİYEV MİKAYIL MEHDİ OĞLU

655 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 2 saylı orta texniki və humanitar elmlər təmayüllü liseyin məzunudur.



## HƏSƏNZADƏ SƏBUHİ CƏMİL OĞLU

654 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Qubadlı rayonu F.Mehdiyev adına Qaralar kənd tam orta məktəbinin məzunudur.



## HÜSEYNLİ FƏRİD ELSEVƏR OĞLU

652 balla «Qafqaz» Universitetinin «Mexanika mühəndisliyi» ixtisasına qəbul olub.
Naxçıvan türk liseyinin məzunudur.



## XASAYEV POLAD CƏMİL OĞLU

652 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 46 saylı tam orta məktəbin məzunudur.



## ƏLİYEV ASLAN ELXAN OĞLU

652 balla «Qafqaz» Universitetinin «Mexanika mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı özəl türk liseyinin məzunudur.



## ƏLİYEV YELMAR AYDIN OĞLU

652 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Proseslərin avtomatlaşdırılması mühəndisliyi (TEMPUS layihəsi)» ixtisasına qəbul olub.
Bakı şəhəri 109 saylı tam orta məktəbin məzunudur.



## İSMAYILOV BALAKİŞİ AĞAKİŞİ OĞLU

652 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Kürdəmir rayonu Q.Sadıqov adına Mollakənd kənd tam orta məktəbinin məzunudur.



## SƏİDZADƏ FƏQAN HƏBİBULLA OĞLU

650 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 21 saylı tam orta məktəbin məzunudur.



### HÜSEYNLİ NƏRMİN VASİF QIZI

650 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 240 saylı tam orta məktəbin məzunudur.



### ƏLƏSGƏROV ELDAR ELMAR OĞLU

649 balla «Qafqaz» Universitetinin «İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı özəl türk liseyin «Dədə Qorqud» filialının məzunudur.



### QULİYEVA HUMAY FİRUDİN QIZI

647 balla Bakı Dövlət Universitetinin «Riyaziyyat» ixtisasına qəbul olub.
Astara rayonu N.Həsənov adına Kijəbə qəsəbə tam orta məktəbinin məzunudur.



### RƏCƏBOV İLHAM NİZAMİ OĞLU

647 balla «Qafqaz» Universitetinin «Mexanika mühəndisliyi» ixtisasına qəbul olub.
İ.Əfəndiyev adına «Elitar» gimnaziyanın məzunudur.



### XƏLİL-ZADƏ ƏLİ AZƏR OĞLU

647 balla «Qafqaz» Universitetinin «Mexanika mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 196 saylı tam orta məktəbin məzunudur.



### ŞAMIYEVA ARZU RAFİQ QIZI

647 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 95 saylı tam orta məktəbin məzunudur.



### NƏZƏROVA ZİBEYDƏ VAHİD QIZI

646 balla Bakı Dövlət Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 145 saylı tam orta məktəbin məzunudur.



### ŞAHHÜSEYNLİ KAMİLLA AQİL QIZI

645 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Ekologiya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 23 saylı tam orta məktəbin məzunudur.



### İSKƏNDƏRLİ NƏRMİN DAŞQIN QIZI

644 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 240 saylı tam orta məktəbin məzunudur.



### MUSAYEVA GÜNAY VALEH QIZI

642 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Texniki və təbiət elmləri təmayüllü liseyin məzunudur.



### SABİLİ SEVDA ŞAHİN QIZI

642 balla «Qafqaz» Universitetinin «Mexanika mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 141 saylı tam orta məktəbin məzunudur.



### ADİNAYEVA ALBİNA GENNADİYEVNA

642 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 82 saylı tam orta məktəbin məzunudur.



## ƏLƏKBƏROV SƏBUHİ RÖVŞƏN OĞLU

642 balla «Qafqaz» Universitetinin «Mexanika mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 87 saylı tam orta məktəbin məzunudur.



## SƏFƏRALIYEVA SONA İLDIRIM QIZI

642 balla Bakı Dövlət Universitetinin «Riyaziyyat» ixtisasına qəbul olub.
Kimya-biologiya təmayüllü liseyin məzunudur.



## SADIXOVA MƏHBUBƏ RƏHİM QIZI

642 balla Bakı Dövlət Universitetinin «Riyaziyyat» ixtisasına qəbul olub.
Bakı türk liseyinin məzunudur.



## XƏLİLLİ MƏHSƏTİ NEMƏT QIZI

642 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 24 saylı tam orta məktəbin məzunudur.



## MƏHSİMOV BƏHRUZ ƏLMUDDİN OĞLU

640 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 72 saylı məktəb-liseyin məzunudur.



## HÜSEYNOV MÜSEYİB SƏHRAB OĞLU

640 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 147 saylı texniki-humanitar təmayüllü liseyin məzunudur.



## HADİYEV AĞAŞİR OQTAY OĞLU

640 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 87 saylı tam orta məktəbin məzunudur.



## RƏHİMZADƏ RAMİN RAUF OĞLU

640 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Şəki rayonu 12 saylı şəhər tam orta məktəbinin məzunudur.



## CƏFƏROV CAVİD HEYDƏR OĞLU

639 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur.



## SADIQ ZADƏ FƏRHAD RƏHMAN OĞLU

639 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 42 saylı tam orta məktəbin məzunudur.



## ƏLİYEV TURAL NAZİM OĞLU

638 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 144 saylı tam orta məktəbin məzunudur.



## ƏYYAMZADƏ ÜLVİ HİKMƏT OĞLU

638 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Gəncə şəhəri M.Ə.Sabir adına 5 saylı şəhər tam orta məktəbinin məzunudur.



### YUNUSOVA PƏRVANƏ RAHİB QIZI

638 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 284 saylı tam orta məktəbin məzunudur.



### ƏLİYEV ƏLİBABA HABİL OĞLU

637 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Gəncə şəhəri İ.Nəsimi adına 44 saylı Bağça-məktəb-lisey kompleksinin məzunudur.



### BABAYEV ƏVƏZ NAZİM OĞLU

637 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Gəncə Azərbaycan-Türkiyə özəl liseyinin məzunudur.




### RƏCƏBLİ CEYHUN ELÇİN OĞLU

637 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Atatürk liseyinin məzunudur.



### YAQUBLU AYTƏN ZİYAD-XAN QIZI

636 balla «Qafqaz» Universitetinin «Riyaziyyat və informatika müəllimliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 221 saylı tam orta məktəbin məzunudur.



### ŞIXIYEV TURQUT HAFİZ OĞLU

635 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur.



### ƏLİYEV SƏNAN RÖVŞƏN OĞLU

635 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Gəncə şəhəri M.Mehdizadə adına 4 saylı şəhər tam orta məktəbinin məzunudur.



### AĞAYEVA NAHİDƏ FARİZ QIZI

635 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 286 saylı tam orta məktəbin məzunudur.



### MƏMMƏDOV CƏMİL RAFAİL OĞLU

630 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 12 saylı tam orta məktəbin məzunudur.



### ƏKBƏROVA AYTƏN HƏZİ QIZI

630 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Təkrar emal və bərpa texnologiyaları mühəndisliyi» ixtisasına qəbul olub.
Naxçıvan şəhəri V.M.Zeynalov adına 3 saylı tam orta məktəbin məzunudur.



### BABAYEV TƏHMİN İNTİQAM OĞLU

630 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Cəlilabad rayonu 8 saylı şəhər tam orta məktəbinin məzunudur.



### HƏSƏNOV FƏRİD ƏSGƏR OĞLU

630 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasına qəbul olub.
Goranboy rayonu Safıkürd kənd tam orta məktəbinin məzunudur.



## PADAROV YUSİFBƏY XƏLİL OĞLU

629 balla «Qafqaz» Universitetinin «Riyaziyyat müəllimliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 312 saylı tam orta məktəbin məzunudur.



## ABBASZADƏ SEVİNC ƏLİSALAM QIZI

629 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri Bağça-məktəb-lisey kompleksinin məzunudur.



## ABDULLAYEV ABDULLA İLQAR OĞLU

627 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 14 saylı tam orta məktəbin məzunudur.



## HÜSEYNLİ SAMİRƏ ÇAPAY QIZI

627 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Tovuz rayonu Düzqırıxlı kənd 1 saylı tam orta məktəbinin məzunudur.



## CƏFƏROV İLKİN FİZULİ OĞLU

627 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz qurğuları mühəndisliyi» ixtisasına qəbul olub.
Cəlilabad rayonu 8 saylı şəhər tam orta məktəbinin məzunudur.



## MƏMMƏDOV EYYUB ELXAN OĞLU

627 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 126 saylı tam orta məktəbin məzunudur.



## ADIGÖZƏLZADƏ İBRAHİM İLHAM OĞLU

627 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 115 saylı tam orta məktəbin məzunudur.



## İSMAYILOV RÜFƏT RAUF OĞLU

626 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 14 saylı tam orta məktəbin məzunudur.



## İBRAHİMOV NİCAT FUAD OĞLU

625 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Proseslərin avtomatlaşdırılması mühəndisliyi (TEMPUS layihəsi)» ixtisasına qəbul olub.
Bakı şəhəri Ə.Kazımov adına 228 saylı tam orta məktəbin məzunudur.



## ƏMRAHLI AYSEL AKİF QIZI

625 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 104 saylı tam orta məktəbin məzunudur.



## KAMİLOVA NİGAR FƏQANİ QIZI

625 balla Bakı Dövlət Universitetinin «Riyaziyyat müəllimliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 260 saylı tam orta məktəbin məzunudur.



## LAÇINOV ÜLVİ FUAD OĞLU

624 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 210 saylı tam orta məktəbin məzunudur.



### ƏŞRƏFLİ ASLAN NAZİM OĞLU

624 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Geologiya mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur.



### MƏMMƏDLİ MÖVLÜD ELNUR OĞLU

624 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz qurğuları mühəndisliyi» ixtisasına qəbul olub.
Zaqatala rayonu 1 saylı şəhər tam orta məktəbinin məzunudur.



### MƏMMƏDOVA İNCİ HEYDƏR QIZI

623 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Naxçıvan şəhəri Ə.Ağayev adına 8 saylı tam orta məktəbin məzunudur.



### NOVRUZOV HƏBİB MƏZAHİR OĞLU

622 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Babək rayonu N.Məmmədov adına Sirab kənd tam orta məktəbinin məzunudur.



### ABBASLI TURAL SADİK OĞLU

622 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 164 saylı tam orta məktəbin məzunudur.



### ZEYNALOV TOFİQ RAFİQ OĞLU

621 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz qurğuları mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 160 saylı klassik gimnaziyanın məzunudur.



### HÜSEYNOVA ŞƏBNƏM HABİL QIZI

621 balla Bakı Dövlət Universitetinin «Riyaziyyat müəllimliyi» ixtisasına qəbul olub.
Abşeron rayonu Mehdiabad qəsəbə 2 saylı tam orta məktəbinin məzunudur.



### ŞƏRİFZADƏ NİGAR NİYAZİ QIZI

620 balla Bakı Dövlət Universitetinin «Riyaziyyat müəllimliyi» ixtisasına qəbul olub.
Şəki rayonu Qumux kənd tam orta məktəbinin məzunudur.



### MUSAYEVA AYGÜL İLHAM QIZI

619 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Proseslərin avtomatlaşdırılması mühəndisliyi (TEMPUS layihəsi)» ixtisasına qəbul olub.
Bakı şəhəri 276 saylı tam orta məktəbin məzunudur.



### QARAYEVA CƏMİLƏ RAFİQ QIZI

619 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 260 saylı tam orta məktəbin məzunudur.



### ƏBÜLFƏZLİ ÜLVİ NURƏDDİN OĞLU

619 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 176 saylı tam orta məktəbin məzunudur.



### ƏHMƏDOVA AYTƏN İDRİS QIZI

617 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



## NAĞIYEV DƏRYA TOFİQ OĞLU

617 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Şahbuz rayonu T.V.Alməmmədov adına Keçili kənd tam orta məktəbinin məzunudur.



## MÖVSÜMOV MİRSAHİB ŞAMİL OĞLU

615 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Fars və ingilis dili təmayüllü tam orta internat məktəbinin məzunudur.



## ƏHMƏDOV XƏQANİ ELMAN OĞLU

614 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Proseslərin avtomatlaşdırılması mühəndisliyi (TEMPUS layihəsi)» ixtisasına qəbul olub.
Bakı şəhəri 258 saylı tam orta məktəbin məzunudur.



## KƏRİMOVA AYSEL AYDIN QIZI

614 balla «Qafqaz» Universitetinin «Riyaziyyat və informatika müəllimliyi» ixtisasına qəbul olub.
Zaqatala rayonu Humanitar təmayüllü gimnaziyanın məzunudur.



## ORUCLU AYŞƏN ORUC QIZI

614 balla «Qafqaz» Universitetinin «Riyaziyyat müəllimliyi» ixtisasına qəbul olub.
Qax rayonu Ləkit kənd tam orta məktəbinin məzunudur.



## BAĞIRZADƏ ZAUR ZAKİR OĞLU

613 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 160 saylı klassik gimnaziyanın məzunudur.



## AYDINLI AYSEL AZƏR QIZI

613 balla Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialının «Riyaziyyat və informatika müəllimliyi» ixtisasına qəbul olub.
Şəki rayonu 17 saylı şəhər tam orta məktəbinin məzunudur.



## TALIBOVA RƏQİBƏ SAKİT QIZI

612 balla «Qafqaz» Universitetinin «Riyaziyyat müəllimliyi» ixtisasına qəbul olub.
Salyan rayonu T.S.Şirinov adına Yuxarı Xalac kənd 2 saylı tam orta məktəbinin məzunudur.



## HƏSƏNOV İSA NATİQ OĞLU

611 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz qurğuları mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 291 saylı «Araz» ekologiya liseyinin məzunudur.



## NƏCƏFLİ SARVAN FƏRMAN OĞLU

610 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Gəncə Azərbaycan-Türkiyə özəl liseyinin məzunudur.



## HÜSEYNLİ ŞƏRİF ƏRƏSTUN OĞLU

610 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 286 saylı tam orta məktəbin məzunudur.



## ƏMƏNOV SAMİR VALEH OĞLU

610 balla Xəzər Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı özəl türk liseyinin Lənkəran filialının məzunudur.



### MƏMMƏDOV KAMRAN ZAKİR OĞLU

609 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Fizika,riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



Sorğuda ümumilikdə 903 nəfər (51,60% oğlan, 48,40% qız) abituriyent iştirak etmişdir. Onlardan 165 nəfəri (112 oğlan, 53 qız) I qrup, 253 nəfəri (190 oğlan, 63 qız) II qrup, 209 nəfəri (69 oğlan, 140 qız) III qrup, 276 nəfəri (95 oğlan, 181 qız) isə IV qrupun abituriyentləri olmuşdur.

**"Qəbula necə hazırlaşmısınız?"** sualına cavab olaraq respondentlərin 9,08 %-i (82 nəfər) qəbul imtahanlarına müstəqil şəkildə, 74,64 %-i (674 nəfər) repetitorların köməyi ilə, 15,95 %-i (144 nəfər) isə hazırlıq kursları vasitəsi ilə hazırlaşdığını bildirmişdir. 0,33% (3 nəfər) suala cavabdan imtina etmişdir. Abituriyentlərin xeyli hissəsi qəbulda yüksək nəticə əldə etmək üçün aşağı siniflərdən dərsləri sistemli şəkildə oxumaq, repetitor və ya hazırlıq kurslarına getməklə yanaşı, müstəqil şəkildə hazırlaşmaq, yəni hazırlığın bir neçə formasından (qarışıq) istifadə etmək lazım gəldiyini qeyd etmişdir.

**"İmtahana hazırlığınızın müddəti"** sualına respondentlərin 1,77 % (16 nəfər) hazırlığa bir neçə ay, 22,04 %-i (199 nəfər) 1 ilə qədər, 13,51 % -i (122 nəfər) ilyarım, 56,37 %-i (509 nəfər) 2 il, 6,09 % (55 nəfər) 2 ildən də çox vaxt sərf etdiklərini bildirmişdir. 0,22% isə (2 nəfər) sualı cavablandırmaqdan imtina etmişdir.

**"Ali təhsil müəssisəsinə daxil olmaqda siz hansı amili rəhbər tutumsunuz (bir neçəsini seçmək olar)?"** sualına cavablar da müxtəlif olub. Belə ki, rəyi soruşulanların 72,43%-i (654 nəfər) seçim zamanı, ilk növbədə nüfuzlu ixtisas əldə etmək istədiyini qeyd edib, 48,39 %-i (437 nəfər) bildirib ki, onları ali təhsil almağa öyrənmək həvəsi istiqamətləndirib. Sorğuda "yüksəkmaaşlı iş tapmaq arzusu" cavabına 38,87% (351 nəfər), "ali təhsilin nüfuzu" cavabına isə 41,64% (376 nəfər) üstünlük vermişdir. Qəribədir ki, respondentlər arasında hələ də təhsilini nə üçün davam etdirdiyini deməyə çətinlik çəkənlər də (4,43% –40 nəfər) olmuşdur. 0,44% (4 nəfər) isə bildirib ki, ali təhsil almasına hərbi çağırışdan rəsmi möhlət almaq istəyi təsir göstərib. 0,11% (1 nəfər) isə sualı cavablandırmaqdan imtina etmişdir.

Qeyd edək ki, burada respondentlərə bir neçə cavab seçmək imkanı verildiyi üçün cavabların ümumi sayı 100 faizi ötmüşdür.

Sorğu zamanı **"İxtisas seçiminizə kim və nə təsir etmişdir?"** sualına verilən cavablardan bəlli olub ki, respondentlərin bir qismi seçim edərkən iki və daha artıq variantı qeyd edib. Beləliklə, rəyi soruşulaların 38,87%-i (351 nəfər) onların ixtisas seçiminə valideynlərinin təsiri olduğunu qeyd edib. Müstəqil seçim etdiklərini göstərənlərin sayı da az deyildir. Belə ki, 38,76% (350 nəfər) abituriyent ixtisas seçimində onlara heç kimin təsir etmədiyini, yəni bu məsələdə öz şəxsi rəylərinə əsaslandıqlarını bildirib. Respondentlərin 8,19 %-i (74 nəfər) seçim edərkən ictimai rəyi, 12,85 %-i ( 116 nəfər) müəllimlərin məsləhətini nəzərə aldıqlarını qeyd edib. 6,20 % (56 nəfər) abituriyent isə "Abituriyent" jurnalında dərc edilən məlumatları və informasiyaları nəzərə almaqla ixtisas seçdiklərini bildirib. Sorğuda iştirak edənlərin müəyyən hissəsi onlara ixtisas seçməkdə dostlarının (3,77% – 34 nəfər), qohumlarının (3,65% – 33 nəfər), televiziyanın (0,66 % – 6 nəfər) yardımçı

olduğunu göstərib. Qəribədir ki, respondentlər arasında qəbul olduğu ixtisası hətta təsadüfi seçdiyini qeyd edənlər də olmuşdur: 0,55% (5 nəfər). 5,98% (54 nəfər) ixtisas seçiminə "nə isə başqa səbəblər"in təsir etdiyini, 2,21 % (20 nəfər) bu suala cavab verməkdə çətinlik çəkdiyini qeyd edib. 0,66% (6 nəfər) respondent isə sualı cavablandırmaqdan imtina edib.

"**Son tədris ilində «Abituriyent» jurnalını oxumusunuzmu?"** sualına verilən cavablardan məlum olmuşdur ki, "Abituriyent" jurnalı rəyi soruşulanların əksəriyyətinin məlumatlandırılmasında mühüm rol oynamışdır. Belə ki, sorğu iştirakçılarının 50,61%-i (457 nəfər) jurnalı mütəmadi şəkildə oxuduğunu, 45,41%-i (410 nəfər) isə bəzi sayları ilə yaxından maraqlandığını bildirib. Abituriyentlərdən yalnız 3,65%-i (33 nəfər) "Abituriyent"i oxumadığını qeyd edib. 0,33% (3 nəfər) isə suala cavab verməkdən imtina edib.

Sorğuda abituriyentlərin **builki qəbulda ilk dəfə tətbiq edilən açıq tipli test tapşırıqlarına münasibətləri də öyrənilmişdir.** Respondentlərin 31,67%-i (286 nəfər) açıq tipli test tapşırıqlarının tətbiqinə qeyd-şərtsiz, birmənalı şəkildə tərəfdar olduğunu qeyd etmişdir. Onların fikrincə, belə tipli testlər abituriyentlərdə məntiqi təfəkkürü və səlis düşünmə, fikir yürütmə qabiliyyətini üzə çıxarır. 3,54 % (32 nəfər) abituriyent bu sualı cavablandırmaqdan imtina etmişdir. "Digər cavablar" bəndini seçən 11,08% (100 nəfər) abituriyent açıq tipli test tapşırıqlarının digər fənlər üzrə test blokuna salınmasını məqbul saysalar da, təklif edirlər ki, bu halda imtahanın vaxtı uzadılsın. Açıq tipli testlərin digər fənlər üzrə test blokuna salınmamasını qeyd edənlər isə (53,71% – 485 nəfər) bunun səbəbini daha çox vaxt amili ilə əlaqələndirmişlər. Onların fikrincə, imtahanda açıq tipli testlərin həlli qapalı (ənənəvi) testlərə nisbətən daha çox vaxt aparır. Odur ki, açıq tipli testlər digər fənlərdə də tətbiq edilərsə, gərək bu dəyişikliyin vaxt amili ilə uzlaşdırılmasına da diqqət yetirilsin. Buradan belə bir nəticə çıxır ki, ilk baxışda hətta açıq tipli testlərin tətbiqinə əks rəy bildirənlər də mahiyyət etibarilə (vaxt amilinin nəzərə alınmasını qeyd etməklə) açıq tipli testlərin bütün fənlərdə tətbiqinə əks mövqedə deyillər.

**"İmtahan suallarının çətinlik dərəcəsi barədə fikriniz"** sualına rəyi soruşulanların əksəriyyəti – 64,89% (586 nəfər) imtahanlarda tətbiq edilən sualların çətinlik dərəcəsinin normal olduğunu bildirib. Sualları çətin sayanlar 19,16 % ( 173 nəfər) təşkil edib. Sorğuda sualların çətinlik dərəcəsinin artırılmasını 5,54% (50 nəfər) və azaldılmasını 16,06% (145 nəfər) təklif edənlər də olub. 0,22% (2 nəfər) isə sualı cavablandırmaqdan imtina edib.

Abituriyentlərin **"İmtahan vaxtı barədə nə deyə bilərsiniz?"** sualına verdikləri cavablar da maraq doğurur. Onların əksəriyyəti 80,07 %-i (723 nəfər) qəbul imtahanının keçirilməsi üçün ayrılan vaxtın kifayət etdiyini düşünür. 3,21% (29 nəfər) abituriyent sualları cavablandırmaq üçün 3 saatın çox olduğunu qeyd etdiyi halda, 16,28 %-i (147 nəfər) bu müddətin onlar üçün kifayət etmədiyini bildirib. 0,44% (4 nəfər) isə suala cavab verməkdən imtina edib.

**"Əgər yenidən qəbul olsaydınız, bu ixtisası seçərdinizmi?** sualına cavab olaraq respondentlərin böyük əksəriyyəti 89,70% (810 nəfər) seçimlərindən razı qaldıqlarını bildirmiş və "Bəli" cavabını vermişdir. Bununla belə bu suala "xeyr" cavabını verənlər, yəni yenidən qəbul olmaq şansı yaransaydı, ixtisasını dəyişmək fikrində olanlar da (4,65% – 42 nəfər) olmuşdur. Çox güman ki, bu abituriyentlərin əksəriyyəti ixtisas seçimi ərizələrində göstərdikləri 1-ci ixtisasa deyil, sonrakı yerlərə qəbul olanlardır. 5,54% (50 nəfər) respondent isə suala cavab verməkdə çətinlik çəkib. Abituriyentlərin 0,11%-i (1 nəfər) sualı cavablandırmaqdan imtina etmişdir.

Sorğuda iştirak edənlərə ünvanlanan **"Ailənizin maddi təminat səviyyəsi"** sualına cavablardan məlum olmuşdur ki, qəbulda yüksək nəticə əldə edən abituriyentlərin ailələrinin maddi-sosial şəraiti müxtəlifdir. Rəyi soruşulanların əksəriyyəti( 66,67% – 602 nəfər) ailələrinin maddi təminat səviyyəsinin orta olduğunu bildirmişdir. Sorğuda iştirak edənlərin 4,43%-i (40 nəfər) kifayət qədər təminatlı ailədə yaşadığını, 26,36%-i (238 nəfər) ailələrinin maddi təminat səviyyəsinin aşağı, 1,22%-i (11 nəfər) yoxsul olduğunu qeyd etmişdir. 1,33% (12 nəfər) isə, ümumiyyətlə, sualı cavablandırmamışdır.

**“Qəbul imtahanında yaradılan şərait sizi qane etdimi?”** sualına cavab olaraq rəyi soruşulanların 97,47%-i yaradılan şəraitdən qeyd-şərtsiz, birmənalı razı qaldığını bildirmişdir. Sorğu iştirakçılarının 0,44%-i (4 nəfər) suala “Qane etmədi” cavabını versə də, ancaq öz rəylərini heç bir səbəblə əsaslandırmamış, 0,22%-i (2 nəfər) yaradılan şəraitin onları qane etməməsinin səbəbi kimi “otaqda nəzarətçilərin imtahana lazımınca nəzarət etmədiklərini” (1 nəfər), “zalda səs-küy olduğunu” (1 nəfər) göstərmişdir. 0,55% (5 nəfər) yaradılan şəraitin onları, əsasən, qane etdiyini bildirsə də, imtahan verdikləri zalda xoşagəlməz məqamlarla da qarşılaşdıqlarını qeyd etmişlər. Onlardan 3 nəfəri buna aid heç bir konkret fakt göstərməmiş, 2 nəfəri isə imtahan otağında nəzarətin zəif olduğunu qeyd etmişdir. Abituriyentlərin 0, 66%-i (6 nəfər) sualı cavablandırmaqdan imtina etmişdir.

Qeyd edək ki, rəyi soruşulanların 0,66%-i (6 nəfər) anketdəki “**Qəbul imtahanında yaradılan şərait sizi qane etdimi?”** sualı ilə növbəti “**Qəbul imtahanlarının gedişində neqativ hallarla rastlaşdınızmı?”** sualı arasında məntiqi bağlılığa diqqət yetirməyərək, onlara ziddiyyətli, biri digərini təkzib edən cavablar vermişdir. Belə ki, bu abituriyentlərdən 4 nəfəri əvvəlcə yaradılan şəraitin onları qane etdiyini “Bəli, qane etdi” cavabı ilə təsdiqlədikdən sonra “**Qəbul imtahanlarının gedişində neqativ hallarla rastlaşdınızmı?”** sualına da “Bəli rastlaşdım” cavabını verməklə öz rəylərindəki əksliyi ortaya qoymuş və bununla da özləri özlərini təkzib etmişlər. Birinci suala “Xeyr, yaradılan şərait qane etmədi” cavabını verən 2 nəfər abituriyent də, növbəti suala “Xeyr, neqativ hallarla rastlaşmadım” cavabını verməklə, əvvəlki cavablarına əks rəy bildirmişlər. Qeyd edək ki, bu 6 nəfərin heç biri öz cavablarını izah edən səbəb, yaxud fakt göstərməmişdir.

**Qəbul imtahanlarının gedişində neqativ hallarla rastlaşdınızmı?”** sualına respondentlərin böyük əksəriyyəti – 95,46%-i (862 nəfər) “Heç bir neqativ halla qarşılaşmadım” ca-vabını vermişdir. Abituriyentlərin 1%-i (9 nəfər) suala “Bəzi neqativ hallarla rastlaşdım” deyə cavab versələr də, öz rəylərini təsdiq edən heç bir hal və ya fakt göstərməmişlər. 1,77% (16 nəfər) respondent isə suala “Bəzi neqativ hallarla rastlaşdım” cavabını verərək, bunu imtahan verdikləri otaqlarda rast gəldikləri köçürmə, nəzarətin zəifliyi, bəzi abituriyentlərin başqalarına maneçilik törətməsi kimi hallarla izah etmişlər.

Respondentlərin 1,11%-i (10 nəfər) sualı cavablandırmaqdan imtina etmiş, 0,66 %-nin (6 nəfər) cavabı isə “**Qəbul imtahanında yaradılan şərait sizi qane etdimi?”** sualına verdikləri cavabla məntiqi təzad təşkil etmişdir.

Sorğuda bilik yarışı öncüllərinə qəbul imtahanına hazırlaşmaqla bağlı öz təcrübələrini gələcək abituriyentlərlə bölüşmək, məsləhət, tövsiyə, rəy, arzu və təkliflərini bildirməyə də imkan yaradılmışdır. Aşağıda anket suallarına cavablardan daha çox diqqət çəkən nümunələri təqdim edirik.

## Gələcək abituriyentlərə məsləhət və tövsiyələr

**Ağaşir Hadıyev (I qrup, 640 bal)** Gələcək abituriyentlərə məsləhətim budur ki, öz biliklərini möhkəmləndirməklə yanaşı, psixoloji durumlarına da diqqət yetirsinlər. Çünki bu, ən önəmli amillərdən biridir.

**Arif Arifli (II qrup, 655 bal)** İmtahanlara çox ciddi hazırlaşmağı məsləhət görürəm. Unutmasınlar ki, bu imtahanlar onların gələcək taleyini həll edir. Xüsusilə, ixtisas seçimində çox diqqətli olmaq lazımdır.

**Ayşən Xələfli (I qrup, 660 bal)** Hazırlığın müddəti barədə dəqiq resept vermək olmaz. Müddət şagirdin bilik, bacarıq səviyyəsindən və potensial imkanlarından asılı olaraq dəyişə bilər. Ən əsası nəyi hansı dərəcədə bilib-bilmədiyini dəqiqləşdirməkdir. Test nümunələri ilə çox işləsinlər. Riyaziyyatın digər fənlərə tətbiqini öyrənsinlər.

**Balakişi İsmayılov (I qrup, 652 bal)** İmtahana sistemli hazırlaşarlarsa, daha yüksək nəticə qazanarlar. Həyatda insanın əldə edə bilməyəcəyi heç nə yoxdur. Çalışsalar, daha səylə oxusalar, özlərinə inamlı olsalar, mütləq imtahanda uğur qazanacaqlar.

**Cavid Hacıyev (I qrup, 685 bal)** Dəqiq fənlərə hazırlaşarkən düsturların və qaydaların məntiqini dərk etməyə çalışın. Bunun çox böyük faydası var. Bu yolla oxuduğunuz məlumatın yaddaşınızda həkk olunacağına əmin ola bilərsiniz. İmtahanın hədsiz dərəcədə çətin olacağını fikirləşib özünüzü çox yormayın. İstirahətinizə də fikir verin. Amma bundan sui-istifadə etməyin!

**Cavid Məmmədov (I qrup, 602 bal)** Səbrlə, təmkinlə, əsas hədəfdən yayınmadan, sistemli hazırlaşın. Testlər üzərində işləyərkən onların sayca çoxluğuna deyil, nəticələrinizin keyfiyyət göstəricilərinə diqqət yetirin.

**Ceyhun Babaşov (II qrup, 675 bal)** Aşağı siniflərdən mükəmməl oxumaq lazımdır. Repetitor yanına getmək olar, lakin məktəbdə dərslərə ciddi yanaşsaq, repetitor yanına gedərkən ayrı-ayrı mövzuları daha asan və dərindən mənimsəmiş olarıq.

**Cəmilə Heydərli (II qrup, 604 bal)** Yalnız ixtisas qrupuna aid fənləri öyrənməklə kifayətlənməsinlər, çalışıb bütün fənləri oxusunlar. Hərtərəfli inkişaf etməyə çalışsınlar. Bir də ki, "Abituriyent"in nəşrlərindən səmərəli istifadə etsinlər.

**Fariz Hüseynli (I qrup, 672 bal)** Qəbula hazırlığı axıra, yəni XI sinfə saxlamaq olmaz. Ən azı X sinfin sonundan imtahana 60-70 % hazır olmaq lazımdır. Amma istirahəti də yaddan çıxarmaq olmaz.

**Fəhmin Qurbanov (III qrup, 606 bal)** Mən abituriyentlərə oxumaqdan, öyrənməkdən zövq almağı tövsiyə edirəm. Şagird və tələbə həyatı yalnız bu halda maraqlı ola bilər.

**Fərhad Mustafayev (I qrup, 661 bal)** Məqsədə doğru irəliləməyi heç vaxt dayandırmasınlar və "Abituriyent"in vəsaitlərindən mütəmadi istifadə etsinlər.

**Gövhər Əlizadə (III qrup, 675 bal)** Hər bir abituriyent, ilk növbədə öz bilik və bacarığını düzgün qiymətləndirməyi bacarmalı və buna uyğun ixtisas seçimi aparmalıdır.

**Gülnara Müşteidzadə (III qrup, 610 bal)** Məktəbdə oxuyarkən, müəllimlərin tapşırıqlarını mütəmadi olaraq yerinə yetirsinlər, olimpiadalarda iştirak etsinlər, sınaq imtahanlarına getsinlər, "Abituriyent" jurnalının saylarını, xüsusi buraxılışlarını, test toplularını, dərs vəsaitlərini müntəzəm oxusunlar.

**Günel Məmmədova (I qrup, 670 bal)** Öncədən öz məqsədlərini müəyyən etsinlər, daha sonra seçdikləri ixtisasa aid fənlərə var gücləri ilə hazırlaşsınlar. Hazırlıq ərəfəsində TQDK-nın dərc etdiyi vəsaitlərdən də istifadə etsinlər.

**İkram Bəylərov (I qrup, 660 bal)** Arzu edirəm ki, gələcək abituriyentlər ciddi çalışsınlar və dərslərini yaxşı oxusunlar, testlərlə çox işləsinlər. Sınaq imtahanlarında çox iştirak etsinlər. Vaxtdan səmərəli istifadə etsinlər.

**İlham Şaxverdiyev (I qrup, 655 bal)** İmtahana hazırlıq dövründən başlamış ixtisas seçiminə qədər bizə göstərdiyi köməkliyə görə TQDK-ya təşəkkürümü bildirirəm. Mən gələcək abituriyentlərə dərslərə ciddi yanaşmağı, oxuduqlarını yaxşı mənimsəmək üçün təkrarlamalara əməl etməyi məsləhət görürəm. Qəbul imtahanlarına səmərəli hazırlaşmaq üçün ilk növbədə məktəbdə keçilən tədris materiallarını yaxşı mənimsəmək və öz üzərində müstəqil çalışmaq lazımdır.

**İlkin Səfərli (I qrup, 685 bal)** Dərslərə xüsusi rejimlə, sistemli qaydada hazırlaşın və heç vaxt uğur qazanacağınıza ümidinizi itirməyin.

**İlqar Alışlı (II qrup, 643 bal)** Məsləhət görərdim ki, hər fəndən kiçik konspektlər düzəltsinlər və bu konspektə dərs oxuduqları zaman tez yaddan çıxan, amma əhəmiyyətli olan məlumatları qeyd etsinlər.

**Məryəm Hüseynova (IV qrup, 685 bal)** Ən əsas məsələ sevdiyin, arzuladığın ixtisası seçməkdir. Əgər arzuladığınız peşəni seçmisinzsə, qəbula hazırlıq sizin üçün maraqlı, yaxşı mənada rəqabətdolu bir məşğələyə çevriləcək. Bu prosesdə müəllimlərin köməyindən, məsləhətlərindən istifadə işinizi asanlaşdıracaq.

**Məryəm Nəsrullayeva (I qrup, 672 bal)** Sistemli şəkildə çalışsalar, istəklərinə nail olacaqlar. İmtahanda isə həyəcanlanmamağı, biliklərindən maksimum səviyyədə istifadə etməyi tövsiyə edirəm.

**Nəcməddin Başirzadə (I qrup, 672 bal)** Məsləhət görərdim ki, qəbula hazırlıqda yalnız dərs kitablarını oxumaqla kifayətlənməsinlər. Eyni zamanda məntiqi təfəkkürlərini də inkişaf etdirməyə çalışsınlar. Çünki imtahan suallarının xeyli hissəsi məntiqi düşüncə tələb edən suallardır.

**Ramin Rəhimzadə (I qrup, 640 bal)** Ali məktəbə yüksək nəticələrlə qəbul olmaq istəyən abituriyent dərslərini aşağı siniflərdən yaxşı oxumalıdır. İstirahətə də vaxt ayırmaq, fiziki gümrahlıqla zehni əməyi tarazlaşdırmaq lazımdır.

**Sadiq Rzazadə (I qrup, 675 bal)** Hazırlıq dövründə qəbul proqramına salınmış mövzuları mükəmməl öyrənsinlər. Oxuduqları mövzuları mütəmadi olaraq təkrarlasınlar.

**Sevinc İsmayılova (II qrup, 652 bal)** Abituriyentlərə fəal olmağı, ixtisas seçimini olduqca diqqətlə və heç kimin təzyiqi olmadan yerinə yetirməyi məsləhət görürəm.

**Sənan Süleymanlı (I qrup, 674 bal)** Qəbul proqramları üzrə çalışsınlar, çətinliklərdən qorxmasınlar. Çünki hər şeyin çətin və ya asan olması özümüzdən asılıdır. Bütün sınaq imtahanlarında iştirak etsinlər. Sınaqlarda ilk vaxtlar az bal toplamaqdan qorxub ruhdan düşməsinlər. Səhv edərkən də təşvişə düşmək lazım deyil, insan öz səhvlərindən daha çox öyrənir.

**Sona Səfəralıyeva (I qrup, 642 bal)** Repetitor məşğələləri ilə kifayətlənmək olmaz. Hər bir şagird məktəb dərslərini də mütəmadi oxumalı, müstəqil çalışmalara xüsusi fikir verməli, sınaq imtahanlarında iştirak etməlidir.

**Şamil ƏLəkbərov (I qrup, 665 bal)** Sınaqlarda topladığınız ballarla, nailiyyətlərlə arxayınlaşmayın. Ən yaxşı bildiyiniz suallar da sizi arxayın salmamalıdır. Yadda saxlayın ki, bildiyiniz kimi görünən sual sizi diqqətsizliyə apara bilər.

**Şəfəq Abbasova (III qrup, 601 bal)** Hər şey abituriyentlərin öz əllərindədir. Hər zaman inadla çalışıb, sabaha inamlı addımlarla irəliləsinlər. Ali məktəbə qəbul olmaq sevinci bütün hər şeyə – yuxusuz gecələrə, çəkilən bütün əziyyətlərə dəyər.

**Tahirə Salayeva (II qrup, 660 bal)** Bilik və zəhmət birləşəndə nəticə arzulanan kimi olur. Uğur sizinlə olsun.

**Tengiz Fərzullasoy (II qrup, 652 bal)** Uğur qazanmaq üçün zəhmət çəkmək lazımdır. Yaxşı oxusanız, mütləq bəhrəsini görəcəksiniz.

**Toğrul Novruzlu (II qrup, 680 bal)** Qəbul imtahanlarında müvəffəqiyyətin yolu bir çox şərtlərə əməl edilməsindən keçir. İlk öncə abituriyent öz məqsədinə doğru güclü iradə və məqsədyönlü addımlarla irəliləməlidir. Bu yolun qət edilməsində məsuliyyət, ciddi çalışqanlıq çox önəmli rol oynayır. Unutmaq olmaz ki, qəbul proqramı təkcə imtahana hazırlıq üçün deyil, həm də geniş dünyagörüşü formalaşdırmaq üçündür. Atdığınız hər uğurlu addım sizi tələbə olmaqla yanaşı, həm də bir şəxsiyyət kimi formalaşmağa istiqamətləndirəcək.

**Ulduz Bağırova (I qrup, 670 bal)** TQDK-nın təşkil etdiyi sınaqlarda mütəmadi iştirak etsinlər və hazırlıq müddətində vaxtlarını səmərəli bölgüsünə fikir versinlər.

**Ülkər Həsənli (IV qrup, 685 bal)** Qəbulda uğurlu nəticə əldə etmək üçün səylə, yorulmadan, həvəslə çalışmaq lazımdır. Son iki ildə isə daha sistemli oxumaq və imtahana düşən fənlərə daha çox vaxt ayırmaq vacibdir. "Abituriyent" jurnalının nəşrlərini mütəmadi oxumaq, TQDK-nın keçirdiyi sınaqlarda iştirak etmək olduqca zəruridir.

**Vaqif Bəbirli (IV qrup, 636 bal)** Hər günün dərsini elə həmin gün də hazırlayın. Hər bir hazırlanmamış dərs imtahan zamanı cavabsız sual deməkdir. Bir də unutmayın, əldə edilən bir bal da müsabiqədə önəmli rol oynaya bilər.

**Vüsət Əzizov(II qrup, 603 bal)** Riyaziyyat fənninə xüsusi diqqət yetirməyi, vaxt bölgüsünü düzgün müəyyənləşdirməyi, normal yuxuya, qidalanmaya, istirahətə də fikir verməyi məsləhət görürəm.

**Zəminə Yadullayeva (III qrup, 640 bal)** Məsləhətim budur ki, imtahanda sualları cavablandırarkən çox diqqətli olsunlar. Birincisi, sualı diqqətlə oxuyub onun şərtini, mahiyyətini anlasınlar, sonra cavabları araşdırsınlar. İkinci, kodlaşdırma zamanı diqqətli olmaq vacibdir. Bütövlükdə isə abituriyent özünə nə qədər çox inamlı olsa, uğur ona bir o qədər yaxın olar.

## Təkliflər

**Abduləli Hadızadə (II qrup, 665 bal)** Azərbaycan gəncləri hərtərəfli yetişməlidirlər. Buna görə şagirdlər çalışıb bütün tədris fənlərini eyni səviyyədə öyrənməlidirlər. Dar ixtisas seçdikdə belə, digər fənləri də eyni həvəs və maraqla öyrənməlidirlər.

**Aygün Əsgərli (IV qrup, 696 bal)** Yüksək bal toplayan abituriyentlərin xarici universitetlərdə təhsil qaydaları sadələşdirilsin. Xaricdə oxumağa gedənlər üçün daha geniş miqyaslı təqaüd proqramları tətbiq edilsin.

**Ayşən Xələfli (I qrup, 660 bal)** Sualların çətinlik dərəcəsi artırılsa, yaxşı olar. Bu, zəif, orta və yaxşı şagirdlər arasındakı fərqi daha asanlıqla müəyyən etməyə imkan verər.

**Aytən Seyidəliyeva (IV qrup, 675 bal)** Sınaq imtahanlarının abituriyentlər üçün faydalılığı nəzərə alınaraq onların sayı artırılsın. Çünki abituriyentlər bu sınaqlarda etdikləri səhvlərdən vaxtında nəticə çıxarıb hazırlıqlarını artırır, yüksəldirlər. Bir də təklif edərdim ki, gələcəkdə abituriyentlərin imtahan zallarında tək-tək əyləşdirilməsi təmin edilsin.

**Balakişi İsmayılov (I qrup, 652 bal)** Sınaq imtahanları bölgələrdə nə qədər çox keçirilsə, rayonlarda yaşayan abituriyentlər bundan bir o qədər fayda götürərlər.

**Cavid Məmmədov (I qrup, 602 bal)** Gələcəkdə imtahan fənlərinin sayı artırılsa, bir də ki, sualların daha çox hissəsi məntiqi təfəkkürə əsaslansa, məqsədəuyğun olar.

**Fədai Almazov (IV qrup, 622 bal)** Gələcəkdə bütün test tapşırıqları açıq tipli olsun.

**Fərhad Nağıyev (II qrup, 616 bal)** Əgər digər fənlərə də açıq tipli test tapşırıqları daxil edilərsə, imtahan müddəti yarım saat artırılsın.

**Gülmirə Maqsudova (III qrup, 666 bal)** Repetitorluq indi çox dəbdədir, amma məktəb dərsləri lazımı səviyyədə keçirilsə, ona ehtiyac azalar. İstəyərdim ki, məktəbdə müəllimlər bütün biliklərini şagirdlərə əsirgəmədən versinlər.

**Heydər Tağıyev (II qrup, 635 bal)** Açıq tipli test tapşırıqları digər fənlər üzrə test blokuna salındıqda, imtahan vaxtını artırmaq lazım gələcək. Çünki bu tip test tapşırıqları çox vaxt aparır.

**Hüseyn Əhmədov (IV qrup, 695 bal)** Sınaq imtahanlarının sayı artırılsın və onlar qəbul imtahanına 1 həftə qalana kimi davam etsin.

**İlkin Babazadə (III qrup, 672 bal)** Oxumaq istəyən hər kəs üçün indi respublikamızda hər cür imkanlar var. Gənclərimiz bu imkanlardan maksimum bəhrələnməlidirlər. Bir təklifim də odur ki, açıq tipli testlər digər fənlərə də salınsın. Belə test tapşırıqları abituriyentləri daha yaradıcı surətdə düşünməyə sövq edir.

**İlkin Səfərli (I qrup, 685 bal)** Sınaq imtahanlarında nəzarətin daha da gücləndirilməsini xahiş edirəm.

**İlqar Alışlı (II qrup, 643 bal)** II qrupa informatika fənnindən suallar salınmasını təklif edərdim.

**İrfan Atakişiyev (II qrup, 635 bal)** Açıq tipli testlərin sayı artırılsın. Çünki bu tipli testlər abituriyentdən cavab üzərində daha dərindən düşünməyi, onu əsaslandırmağı tələb edir. Onun məntiqi təfəkkürünün inkişafına köməklik göstərir.

**İsmayıl Nəcəfquluzadə (II qrup, 672 bal)** TQDK-nın rəhbərliyinə və kollektivinə öz təşəkkürümü bildirirəm ki, belə şəffaf, ədalətli və obyektiv imtahan keçirdilər. Suallar bizə biliyimizi hərtərəfli şəkildə nümayiş etdirməyə imkan verdi. Fənlər üzrə açıq tipli testlərdən ibarət ayrıca test kitabları nəşr edilsə, yaxşı olar.

**Məhnibanu Məmmədli (IV qrup, 675 bal)** Yüksək bal toplayan abituriyentlərin sayının çoxaldığı nəzərə alınaraq, Prezident təqaüdçülərinin sayı artırılsın və qəbuldakı yüksək nəticələr əsas götürülərək digər adlı təqaüdlər də təsis edilsin.

**Məmmədtağı Pənahlı (II qrup, 690 bal)** Test bloklarında təkrar tipli sualların sayı azaldılsın. Daha çox açıq tipli və mövzuları daha ətraflı əhatə edən suallar salınsın. Açıq tipli testlərin sayı artırılarsa, vaxt da artırılsın.

**Nail İbrahimli (I qrup, 675 bal)** Şagirdlərin oxumaq həvəsini daha da gücləndirmək üçün Türkiyə və Rusiya Federasiyasının ali məktəblərindən başqa digər ölkələrin nüfuzlu universitetlərinə də qəbul aparılsın. İldə bir neçə dəfə Respublika miqyaslı bilik yarışmaları keçirilsin.

**Nəcməddin Başirzadə (I qrup, 672 bal)** İmtahan binalarına girişdə sıxlıq olur. Buraxılış rejiminin sadə, asan və rahat təşkil edilməsinə ehtiyac var. İmtahan başlayanadək ayrılan 2 saat vaxt abituriyenti çox yorur və bu da onun nəticələrinə təsir edir. Bunlar nəzərə alınsın.

**Nizami Qayıbov (IV qrup, 634 bal)** Açıq tipli testlər əsas fənlər üzrə test blokuna salınsın. IV qrupa da ingilis dili fənni əlavə edilsin.

**Nurlan Puçaxov (II qrup, 613 bal)** Sınaq imtahanlarının sayı artırılsın, dərsliklər təkmilləşdirilsin.

**Ramin Rəhimzadə (I qrup, 640 bal)** "Abituriyent" jurnalının buraxılışlarının tirajı artırılsın, xüsusilə kimya fənnindən çoxlu vəsaitlər çap edilsin. Sınaqların sayı da artırılsa, yaxşı olar.

**Rəhim Hüseynsoy (II qrup, 664 bal)** Açıq tipli test suallarının həlli daha çox vaxt apardığından imtahan vaxtı uzadılsın.

**Sona Məmmədova (IV qrup, 648 bal)** Diqqətlə, amma eyni zamanda sürətlə oxumaq lazımdır. Müvəffəqiyyət çalışmaların müddətinin çoxluğunda deyil, keyfiyyətli və səmərəli olmasındadır. Zəhmətsiz müvəffəqiyyət yoxdur.

Bir də təklif edərdim ki, təhsil haqqı toplanan bala görə müəyyənləşdirilsin. Çünki 100 bala yaxın fərqlə eyni ixtisasda oxuyan 2 tələbənin eyni təhsil haqqını ödəməsi ədalətli deyil.

**Şahmar Nağıyev (II qrup, 672 bal)** Suallar bir qədər çətinləşdirilsin. Məntiqi təfəkkür tələb edən suallara üstünlük verməyinizi alqışlayıram.

**Tural Süleymanlı (II qrup, 680 bal)** Qəbul imtahanları keçirilən rayonlarımızın sayı artırılsın. Çünki bölgələrdən olan abituriyentlər uzaq yerlərə imtahan verməyə gedəndə bəzi problemlərlə qarşılaşır və bunları həll etməkdə çətinlik çəkirlər. Sözsüz ki, bu da onların nəticələrinə müəyyən qədər təsir edir.

**Turqut Quluzadə (IV qrup, 635 bal)** Sualların çətinlik dərəcəsinin artırılmasını, məntiqi düşüncə tələb edən, məntiqi təfəkkürə əsaslanan sualların sayının artırılmasını təklif edirəm.

**Türkünaz Abışova (IV qrup, 678 bal)** Təhsildə, eləcə də qəbul qaydalarında yeni qərarlar qəbul edilərkən abituriyentlərin rəyləri, təklifləri də nəzərə alınsın.

**Vüsət Əzizov(II qrup, 603 bal)** Riyaziyyat fənnindən nəzəri əsaslarla bağlı suallar çox olsa daha yaxşı olar. İmtahana hər fəndən ən azı 5 açıq tipli test sualları salınsın. Ancaq sualların çətinlik dərəcəsi vaxtla uzlaşdırılsın.

**Zərifə Quliyeva (III qrup, 670 bal)** Ədəbiyyatdan daha çox abituriyentin məntiqi düşünmə səviyyəsini ölçməyə istiqamətlənmiş suallara üstünlük verilsin.

**Zibeydə Nəzərova (I qrup, 646 bal)** Bütün ixtisas qruplarında profil fənlər üzrə test blokuna məntiqi suallar da salınsa yaxşı olar. Bir də istərdim ki, xarici dil sualları bir qədər çətinləşdirilsin. Həm də xarici dil bütün qruplara salınsın.

## Rəy və arzular

**Anar Əzizov (II qrup, 611 bal)** İmtahan zalını vaxtından əvvəl tərk etmək sonradan çəkilən ən böyük peşmançılıqdır. Ancaq atalar deyib ki, sonrakı peşmançılıq fayda verməz. İstərdim gələcək abituriyentlər bunu nəzərə alsınlar. Çox yaxşı haldır ki, illər keçdikcə imtahan sualları daha düşündürücü olur. Ancaq imtahan vaxtı bir qədər uzadılsa yaxşı olar. İmtahanlar abituriyentlərin yaşadıqları şəhərlərdə, bölgələrdə keçirilsə, bununla onların rahatlığı daha yaxşı təmin olunar.

**Aydan Fərzullayeva (IV qrup, 625 bal)** Orta məktəbin buraxılış imtahanlarının da TQDK tərəfindən təşkil olunmasını istərdim. Qəbul imtahanlarının bölgələrdə də keçirilməsi çox təqdirəlayiq haldır. Bu yeniliyə görə TQDK-ya öz minnətdarlığımı bildirirəm.

**Aygün Hadılı (II qrup, 604 bal)** Mən qəbul imtahanının təşkilindən, gedişindən razı qaldım. Çünki hər şey şəffaf idi, mən bunu öz gözlərimlə gördüm. Kim həqiqətən oxuyursa, o da tələbə adını qazanır. TQDK bunun üçün hər cür şəraiti yaradır.

**Aytən Abdullayeva (III qrup, 607 bal)** Hər bir abituriyent seçdiyi ixtisas sahəsində gələcəkdə mütəxəssis olacağına əmin olmalıdır. Ən başlıcası isə hansı ixtisası seçməsindən asılı olmayaraq, hər bir gəncin bir ali məqsədi olmalıdır: Azərbaycan Respublikasına layiqincə xidmət etmək!

**Elsevər Təhməzli (II qrup, 627 bal)** Mən həmişə arzu etmişəm ki, Azərbaycanın yüksəkixtisaslı mütəxəssisləri getdikcə artsın. Bu gün ölkəmizdə bunun üçün çox gözəl şərait yaradılıb. İndi söz biz gənclərindir.

**Elvin Əliyev (II qrup, 625 bal)** İmtahanları obyektiv, şəffaf keçirdiyinə, hər bir abituriyentə öz gələcəyini qurmağa kömək etdiyinə görə TQDK-ya təşəkkürlər!

**Elvin Şabanlı (IV qrup, 625 bal)** IV ixtisas qrupu imtahanlarının Lənkəran şəhərində də keçirilməsi abituriyentlərə çox müsbət təsir etdi və buna görə TQDK-nın sədri Məleykə xanım Abbaszadəyə təşəkkür edirəm.

**Əziz Məmmədli (III qrup, 675 bal)** Sistemli və proqramlı hazırlıq uğur və qələbə üçün əsas faktordur.

**Əzizağa Əliyev (I qrup, 662 bal)** Gələcəkdə layiqli vətəndaş, yaxşı mütəxəssis olmaq üçün biliklə yanaşı, həm də geniş dünyagörüşünə yiyələnmək lazımdır.

**Fidan Babayeva (III qrup, 636 bal)** Hər bir abituriyentin seçdiyi ixtisas istiqamətinə uyğun lazimi bilik bazası olmalı, qəbul imtahanlarına da ciddi hazırlaşmalıdır. İxtisas seçərkən özünün maraq dairəsinin istiqamətini mütləq nəzərə almalıdır.

**Günay Əhmədli (II qrup, 656 bal)** Hər bir şagird aşağı siniflərdən özünə bünövrə qoymalıdır. Sonra isə qarşıya qoyduğu məqsədinə çatmaq, cəmiyyətimiz və dövlətimiz üçün yararlı kadr kimi yetişmək üçün əlindən gələni əsirgəməməlidir.

**Günay Mirzəzadə (III qrup, 603 bal)** Qəbula hazırlıq ciddi və məsuliyyətli bir işdir. Öyrənilən hər bir informasiya əsaslı və dəqiq şəkildə yadda saxlanılmalıdır. Materialların öyrənilməsi daim möhkəmləndirilmə ilə müşayiət olunmalıdır. Repetitorların köməyi ilə yanaşı, cari təhsil tələblərinin məktəblərdə yerinə yetirilməsi də vacib şərtdir.

**Humay Rzayeva (IV qrup, 642 bal)** TQDK-nın nəşr etdiyi dərs vəsaitləri imtahana hazırlıq dövründə bizim ən yaxın köməkçimiz idi.

**Könül Şirin (I qrup, 659 bal)** Gələcək abituriyentlərə məsləhətim odur ki, çalışıb sevdikləri ixtisası seçsinlər. Bir də arzu edirəm ki, gələcəkdə 600-dən çox bal toplayanların sayı ilbəil artsın.

**Qəmər İsmayılova (III qrup, 611 bal)** Belə bir məsəl var: əkin vaxtı tənbəllik edən biçin vaxtı peşman olar! Əgər cəmiyyətdə layiqli mövqe tutmaq istəyiriksə, bunun üçün çox səylə çalışmalı, əlimizdən gələni etməliyik!

**Mirfaiq Mirhəsənov (IV qrup, 695 bal)** Gərək hər kəs, ilk növbədə sevdiyi, həvəsi olduğu peşəni seçsin. Həmin ixtisasa da dərindən yiyələnsin, bu sahənin gözəl mütəxəssisi olsun. Belə bir yüksək müvəffəqiyyətə nail olmaq üçün isə o, ilk növbədə orta məktəb proqramını yaxşı mənimsəməlidir.

**Nərgiz Əmiraslanova (III qrup, 614 bal)** Yüksək bal toplamaq üçün yalnız 1-2 il çalışmaq kifayət deyil, dərsləri aşağı siniflərdən sistemli şəkildə oxumaq lazımdır. Mən belə etdim, bəhrəsini də gördüm!

**Nərmin Fərhadlı (IV qrup, 664 bal)** Son 2 ildə çəkdiyim gərgin zəhmət nəticəsində yüksək nəticə əldə etdim. Bu sevinci yaşamağı bütün abituriyentlərə arzu edirəm.

**Nərmin Niftalıyeva (IV qrup, 621 bal)** Fikrimcə, suallar çətinlik dərəcəsinə görə fərqli ballarla qiymətləndirilməlidir.

**Ramil Hüseynzadə (IV qrup, 695 bal)** Elm insanı yüksək zirvələrin qapısına gətirir. Bu, təmiz inancla birləşəndə isə qapılar taybatay açılır və qarşıda insanı heyrətləndirən, məmnun edən çox gözəl mənzərə açılır.

**Samirə Səlimova (IV qrup, 627 bal)** Bir daha əmin oldum ki, biliyin şahı olmaq üçün, zəhmətin köləsi olmaq gərək!

**Sara Rzayeva (IV qrup, 695 bal)** Müasir Azərbaycan gəncliyinin yaxşı təhsil ala bilməsi üçün çox gözəl şərait yaratmış Prezidentimizə, dövlətimizə dərin minnətdarlığımı bildirirəm. Vətənimizə və xalqımıza layiqli övlad olmaq, insanlarımızın sağlamlığının keşiyində ləyaqətlə durmaq üçün səylə çalışacağımı bildirirəm.

**Ucal Ağazadə (IV qrup, 623 bal)** Mən 2010-cu ildə qəbul imtahanlarında 517 balla BDU-ya daxil olmuşdum, amma ATU-da təhsil almaq həvəsi məni daha bir il hazırlaşmağa sövq etdi və istəyimə nail oldum. İndi buna görə çox xoşbəxtəm.

**Yeganə Hüseynli (IV qrup, 690 bal)** Dövlətimizin təhsilə bu qədər diqqət yetirməyi məni çox sevindirir. Arzu edirəm ki, xalqımıza xidmət edən, fayda verən savadlı gənclərimizin sayı daha da artsın!

*Hazırladılar: "Abituriyent"in*
*analitik-informasiya qrupunun üzvləri*
*Tünzalə Cəfərova*
*Leyli Ağayeva*
*Rabil Novruzov*



Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsi xeyli vaxtdır ki, başa çatıb. Ancaq Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına hələ də ictimaiyyətin müxtəlif təbəqələrindən imtahanların gedişi və nəticələri haqqında məktub, teleqram və müraciətlər daxil olur. Jurnalımızın bu sayında ictimai rəyin əks-sədası olan belə materiallardan bir neçəsini dərc edirik.

# MƏKTUBLARDAN SƏTİRLƏR

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına**

Mən bu il III ixtisas qrupu üzrə Naxçıvanda 1 saylı orta məktəbdə imtahan verdim. 1732 saylı otaqda idim. Bizim zala nəzarət edən hər iki nəzarətçiyə sizin vasitənizlə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Onlar bizimlə əsil pedaqoq kimi davranırdılar. Bu cür sağlam ruhlu insanları seçdiyinizə görə Sizə dərin təşəkkürümü bildirir və hamınıza yüksək zirvələrə yüksəlməyi arzu edirəm.

**Hörmətlə,** Heydərov Cabbar İsmayıl oğlu,
Naxçıvan Muxtar Respublikası, Sədərək rayonu.

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının**
**sədri Məleykə xanım Abbaszadəyə**

Hörmətli Məleykə xanım, oğlum Paşayev Ayxan bu il 2-ci ixtisas qrupu üzrə qəbul imtahanında iştirak etdi və 641 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər" ixtisasına daxil oldu. Bu, bizim ailəmizə çox böyük hədiyyə oldu. Qeyd edim ki, belə bir sevinci biz dördüncü dəfədir yaşayırıq. Əvvəlki illərdə qızlarım Paşayeva Leyla Azərbaycan Tibb Universitetinin "Stomatologiya" fakültəsinə, Paşayeva Aysel həmin universitetin "Müalicə işi" fakültəsinə, Paşayeva Aytən isə Bakı Dövlət Universitetinin "Regionşünaslıq" fakültəsinə qəbul olublar. Övladlarımın biliklərinin düzgün və obyektiv qiymətləndirilməsində test sisteminin və onu həyata keçirən TQDK kollektivinin xüsusi xidmətləri vardır. Arzu edirəm ki, bu sistem gələcəkdə də savadlı Azərbaycan gənclərinin üzə çıxarılmasına, ölkəmizdə təhsilin inkişafına və mütəxəssis hazırlığına yeni-yeni töhfələr versin. Ailəmiz adından Sizə bir daha təşəkkürümü bildirir və gələcək fəaliyyətinizdə uğurlar arzu edirəm.

**Sərvər Paşayev,**
Bakı şəhəri, Nizami rayonu, Naxçıvanski küçəsi 63, mənzil 56.

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri M.Abbaszadəyə**

**Hörmətli Məleykə xanım!**

Ali məktəblərə növbəti qəbul imtahanları arxada qaldı. Mən də növbəti dəfə valideyn kimi bu imtahanların həyəcanını yaşadım. Qızım 2009-cu ildə 630, oğlum isə 2011-ci ildə isə 685 bal toplayaraq tələbə adı qazanmışlar.

Elm sahəsində çalışdığım üçün qəbul prosesini həmişə izləməyə çalışıram. Son 3-4 ildə isə bu prosesin ən xırda detalları ilə maraqlanmışam.

TQDK-nın fəaliyyəti məni heyran edir. Saat mexanizmi kimi işləyən kollektiv, prinsipiallıq, şəffaflıq, mükəmməl idarəetmə, qəbul prosesinin sadəliyi, onun dəqiq və məntiqi axarı, biliyin yeganə meyar kimi götürülməsi, yüksək səviyyədə elektronlaşma və s. xüsusiyyətlər TQDK-nı nümunəvi dövlət qurumu kimi xarakterizə edir.

Neqativ hallar üçün potensial olaraq geniş meydanın olduğu bir sahədə obyektivliyin, ədalətin, vahid yarış qaydalarının son dərəcə yüksək səviyyədə təmin edilməsini möcüzə hesab edirəm.

Ölkəmizin gələcəyi və xalqımızın rifahı birbaşa təhsilin səviyyəsindən asılıdır. Bu baxımdan Siz rəhbərlik etdiyiniz kollektivin üzvləri ilə birlikdə xoşbəxtsiniz ki, ömrünüzü, əməyinizi, bilik və bacarığınızı ləyaqətlə belə müqəddəs işə sərf edirsiniz.

Hər kəs əlinə qələm götürüb TQDK haqqında rəyini ifadə etməsə də, əmin ola bilərsiniz ki, mənimlə həmfikir olanların sayı minlərlədir.

Hörmətli Məleykə xanım!

Sizə və TQDK-nın bütün əməkdaşlarına dərin minnətdarlığını bildirirəm. Məsuliyyətli və şərəfli işinizdə uğurlar arzulayıram!

**Böyük hörmət və ehtiramla,**

**Əminağa Sadıqov** Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşı
Az1001, Bakı şəh., Nigar Rəfibəyli küçəsi, 3/5, m. 29. Tel.: 492-96-67, (050) 679-04-18

**Bakı şəhəri, Sabunçu qəs. İlyas Aslanov küç. ev 1, mənzil 4-də yaşayan, 2011-ci ildə ali məktəbə qəbul olmuş Novruzlu Toğrul Yusif oğlunun anası Novruzova Solmaz Əlövsət qızından Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının kollektivinə ünvanlanmış**

**Məktub**

İlk öncə Sizi –TQDK sədri Məleykə xanım Abbaszadə başda olmaqla salamlayır, Sizə çətin və məsuliyyətli fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Bu il mənim hafizəmdə bəzi unudulmaz xatirələrlə yadda qalıb. Oğlum orta məktəbi bitirərək həyatının yeni bir mərhələsi olan müstəqil həyata qədəm qoydu. Təbii ki, müstəqil həyatın uğurlu təməli gələcək nailiyyətlər üçün etibarlı zəmin yaradır. Möhkəm təməl isə ancaq keyfiyyətli təhsildən keçir. Oğlum da təhsilin daşıdığı yüksək dəyərə üstünlük verdi və bu, onun ali məktəbə qəbulunu təmin etməklə mənə sonsuz sevinc bəxş etdi. Ali məktəblərə qəbul imtahanında müvəffəqiyyət bir sıra faktorlarun kompleks həlli nəticəsində ərsəyə gəlir. Bu sahədə ən həlledici amil abituriyentlərin bilik və bacarıqlarının obyektiv qiymətləndirilməsinə yönəlmiş test sisteminin önəmli, danılmaz roludur. Davamlı, proqressiv təkmilləşmə prosesi keçirən TQDK-nın və onun uğurla həyata keçirdiyi test üsulunun ölkəmizin təhsil sisteminə töhfəsi olduqca böyükdür. İmtahanların obyektiv keçirilməsi, bilik və bacarıqların nümayişi üçün hərtərəfli şəraitin yaradılması övladlarına keyfiyyətli təhsil vermək istəyən bütün valideynlərin ürəyincədir. TQDK-nın belə effektiv fəaliyyətinə və cəmiyyətə verdiyi qiymətli töhfələrə görə onun rəhbərliyinə və bütün işçilərinə öz minnətdarlığımı bildirir, bu yöndə Sizə daha yüksək müvəffəqiyyətlər arzulayıram.

**Председателю ГКПС госпоже М.М.Аббасзаде от студентки первого курса юридического факультета Академии Государственного Управления при Президенте Азербайджанской Республики Мамедханлы Нураны Фильман кызы**

**Уважаемая Малейка ханум!**

Хочу поблагодарить Вас и в Вашем лице всех сотрудников ГКПС за высокую организацию процесса вступительных экзаменов. Хочу отметить, что были созданы все условия для того, чтобы абитуриент смог сосредоточиться на свой работе. Моим огромным желанием было поступить на факультет правоведения в Академии Государственного Управления при Президенте Азербайджанской Республики, и я считаю, что одним из важных условий при достижении моей цели стала высокая организация экзаменационного процесса, благодаря чему я смогла набрать 615 баллов. Благодарю Вас за это и желаю Вам в период Вашей дальнейшей работы все чаще встречаться с абитуриентами, которые будут радовать Вас своими высокими результатами!

**Нурана Мамедханлы**

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına**

Bu məktubu Məleykə xanım başda olmaqla bütün TQDK işçilərinə öz minnətdarlığımı bildirmək üçün yazıram. Düzgün və şəffaf imtahan keçirdiyiniz üçün özümün və anamın adından dərin təşəkkürümü bildirirəm. Rezidenturaya imtahan keçirilməsi elan olunanda hərə bir söz danışırdı, amma onların hamısı yalan çıxdı. Məleykə xanım dediyi kimi oldu, həqiqətən də bilik qiymətləndirilir. Hər şey üçün çox sağ olun!

**Mədinə Fərəcova**

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri M.Abbaszadəyə**

**Hörmətli Məleykə xanım,** bir valideyn kimi Sizə və kollektivinizə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Rəhbərlik etdiyiniz Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının təşkil etdiyi qəbul imtahanlarında mənim övladlarım da iştirak ediblər.

2003-cü ildə qızım, 2005-ci ildə isə oğlum ATU-nun "Müalicə işi" fakültəsinə qəbul olublar.

Oğlum bu il universiteti 5.0 balla bitirsə də, rezidenturaya qəbulla bağlı narahatlıq keçirirdik. Lakin hər şey yaxşı oldu. İmtahanlar həmişə olduğu kimi, çox ədalətli keçdi. Oğlum 154 balla "Plastik-cərrahiyyə" ixtisasına qəbul olundu. Onun zəhməti hədər getmədi. Bir daha Sizə təşəkkürümüzü bildirir, "çox sağ olun" deyirik.

**Hörmətlə, Yeganə Əhmədova**

## TELEQRAM

**Tələbə qəbulu üzrə dövlət komissiyasının sədri Məleykə xanım Abbaszadəyə**

Ali məktəblərə qəbulu obyektiv, düzgün apardığınız üçün allah sizi var eləsin, səadət dolu günlər yaşayasınız. Siz Azərbaycan elmini qaranlıqdan, cəhalətdən aydınlığa çıxaran bir mayaka bənzəyirsiniz. Allah sizi qorusun.

**Quliyev Yusif, abituriyentin atası, Sumqayıt şəhəri, 17 mkr., ev 62, mən. 37**

**REDAKSİYA ŞURASI**
M.M.Abbaszadə, N.Ə.Babayev, V.M.Bağırov, F.Ş.Bədəlbəyli, A.Q.Əbiyev, Ə.T.Əmiraslanov, A.M.Məhərrəmov, M.C.Mərdanov, P.A.Nağıyev, A.M.Paşayev, M.M.Vəliyeva.

**REDAKSİYA HEYƏTİ**
A.O.Əliyev (baş redaktor), R.H.Novruzov (baş redaktorun I müavini), İ.M.Allahverdiyev, F.A.Atamov, A.H.Bağırov, G.M.Balacanova, A.H.Batıyeva, N.N.Bayramova, T.A.Bədəlov, N.L.Əliyev, A.E.Həbibov, E.Ş.Hüseynova, N.Z.Hüseynova, Ç.C.Xəlilov, H.H.Kazımov, X.Z.Kərimova, S.S.Mərdanov, Ç.İ.Rüstəmov, O.Y.Şelaginov, H.R.Zeynalov.

**Üslubçular:**
N.M.Musayev, A.S.Əhmədov.

**Kompyuter və dizayn:**
M.Ə.Bədəlov, İ.İ.Cəfərov, X.S.Mirzəyev, A.R.Cəfərova.

**Redaksiyanın ünvanı:**
AZ1078, Bakı şəhəri, Akademik Həsən Əliyev küçəsi, 17.

**Telefon:**
440-30-09 (TQDK)
441-52-20 (redaksiya).

**E-mail:**
abit@tqdk.gov.az

**http:**
www.abiturient.az

Jurnal Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. (Lisenziya B 171, 18 fevral 1999)

**© TQDK - «Abituriyent»**

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi razılığı olmadan jurnalın və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron və ya mexaniki üsulla surətinin çıxarılması **QADAĞANDIR!**

Jurnal Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi materialları əsasında hazırlanmışdır.

Çapa imzalanmışdır 16.11.2011. Tiraj 500.

Jurnal "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.

Reklam materiallarının məzmununa görə redaksiya cavabdeh deyil.

# Mündəricat

| | |
|---|---|
| **1** | PREZİDENT TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI |
| **2** | PREZİDENT TƏQAÜDÇÜLƏRİ İLƏ TQDK-da GÖRÜŞ |
| **8** | ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ GƏNCLƏRLƏ MÜSAHİBƏLƏR |
| | YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR |
| **20** | I QRUP |
| **34** | II QRUP |
| **55** | III QRUP |
| **73** | IV QRUP |
| **96** | 600 BALDAN YUXARI NƏTİCƏ ƏLDƏ ETMİŞ GƏNCLƏRLƏ ANKET SORĞUSU |
| **98** | GƏLƏCƏK ABİTURİYENTLƏRƏ MƏSLƏHƏT VƏ TÖVSİYƏLƏR |
| **101** | TƏKLİFLƏR |
| **103** | RƏY VƏ ARZULAR |
| **106** | MƏKTUBLARDAN SƏTİRLƏR |

## "Abituriyent" jurnalının 12-ci sayında:

- Ali təhsil müəssisələrinə builki tələbə qəbulunun nəticələrinin elmi-statistik təhlili
- Abituriyentlərin ayrı-ayrı fənlər üzrə göstəriciləri, müxtəlif ixtisas qruplarına meyil və maraqları
- Yüksək və zəif nəticəli rayonlar və məktəblər
- Müxtəlif ixtisaslarda müsabiqə vəziyyəti
- Ali təhsil müəssisələrinin reytinqi
- Magistraturaya qəbul imtahanlarının nəticələri
- Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun nəticələri
- TQDK-nın illik fəaliyyəti: faktların xronologiyası.